# BAKU ENERGY FORUM 30

FORUM MATERİALLARI
FORUM HANDBOOK

## 30-cu YUBİLEY BAKI ENERJİ FORUMU

JUNE 3•4 İYUN 2025

BAKI, AZƏRBAYCAN / BAKU, AZERBAIJAN

## 30th ANNIVERSARY BAKU ENERGY FORUM

BAŞ TƏRƏFDAŞ
GENERAL PARTNER
SOCAR




socar.az

https://www.facebook.com/SOCARofficial/

https://twitter.com/SOCARofficial

https://www.instagram.com/socarofficial/

https://www.youtube.com/user/SOCARofficial

https://az.linkedin.com/company/socarofficial

https://t.me/SOCARresmi

BAKU ENERGY FORUM 30

Təşkilatçılar Bakı Enerji Forumu göstərdikləri dəstəyə görə bütün dövlət strukturlarına və sponsorlara öz dərin minnətdarlığını bildirirlər.

The organisers would like to thank all the state bodies and sponsors for their support and commitment to the Baku Energy Forum.

TƏŞKİLATÇILAR / ORGANISERS

ITECA CASPIAN, icaevents, ceo caspian event organisers, caspian event management, E&C

DƏSTƏK / SUPPORT

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
THE MINISTRY OF ENERGY OF THE REPUBLIC OF AZERBAIJAN

OPEC

BAŞ TƏRƏFDAŞ / GENERAL PARTNER

SOCAR

QIZIL SPONSORLAR / GOLD SPONSORS

ACWA POWER, bp, MASDAR, MOLGROUP, MVM, TotalEnergies, XRG

GÜMÜŞ SPONSORLAR / SILVER SPONSORS

GAP İNŞAAT, INPEX

BÜRÜNC SPONSORLAR / BRONZE SPONSORS

ABB, HUAWEI, INTI INSTITUTE FOR INITIATIVES IN OIL AND GAS TECHNOLOGIES, SAIPEM, slb, TÜRKİYE PETROLLERİ ANONİM ORTAKLIĞI

RƏSMİ BANK / OFFICIAL BANK

PASHA Bank

İNTELLEKTUAL TƏRƏFDAŞ / INTELLECTUAL PARTNER

BCG

KONSALTİNQ ÜZRƏ TƏRƏFDAŞ / CONSULTING PARTNER

Deloitte.

# BAKU ENERGY FORUM 30

Təşkilatçılar Bakı Enerji Forumu göstərdikləri dəstəyə görə bütün tərəfdaşlara və kütləvi informasiya vasitələrinə öz dərin minnətdarlığını bildirirlər.

The organisers would like to thank all partners and representatives of mass media for their support and commitment to the Baku Energy Forum.

## TƏŞKİLATÇILAR / ORGANISERS

Iteca Caspian, icaevents, ceo caspian event organisers, caspian event management, E&C

## RƏSMİ MEHMANXANALAR / OFFICIAL HOTELS

Hilton Garden Inn Baku, ibis, Radisson Baku

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ / TRAVEL PARTNER

Greenwich Travel Club

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ / MEDICAL PARTNER

Referans Medical Group

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ
## OFFICIAL STAND BUILDER

AZ Expo Montage

## BAŞ İNFORMASİYA TƏRƏFDAŞI / GENERAL MEDIA PARTNER

Caspian Energy International Media Group

## İNFORMASİYA TƏRƏFDAŞLARI / INFORMATION PARTNERS

AZ TV, AZƏRTAC, 1NEWS.AZ

## RƏSMİ RADİO TƏRƏFDAŞI / OFFICIAL RADIO PARTNER

asan radio

## NETVORKİNQ TƏRƏFDAŞI / NETWORKING PARTNER

Caspian Energy Club – Energy for Business

## İNFORMASİYA DƏSTƏYİ / INFORMATION SUPPORT

asantv, BHB, Bright, Caspian magazine, Radio Energi, KazService, Neft va Gaz, Park Bulvar, Petroleum, Top Business

## İNTERNET DƏSTƏYİ / INTERNET SUPPORT

abc.az, apa, Baku News, faktor.az, lent.az, ona, redaksiya, Renewables.az, vesti.az, Vision Azərbaycan TV

# Mündəricat
# Content

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜRACİƏTİ
THE OFFICIAL GREETING FROM THE PRESIDENT OF
THE REPUBLIC OF AZERBAIJAN 4

SALAMLAMA MƏKTUBLARI
WELCOME LETTERS 9

SPONSORLARIN SİYAHISI
LIST OF SPONSORS 19

MƏRUZƏÇİLƏRİN TƏRCÜMEYİ-HALLARI 29

İŞTİRAKÇILARININ TƏQDİM ETDİKLƏRİ MƏLUMATLAR 77

SPEAKERS' BIOGRAPHIES 87

PARTICIPANTS' DESCRIPTIONS 129



**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

30-CU YUBİLEY
"BAKI ENERJİ HƏFTƏSİ"-NİN
İŞTİRAKÇILARINA MÜRACİƏTİ

**THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN**

THE OFFICIAL GREETING TO THE
PARTICIPANTS OF THE
30TH ANNIVERSARY
BAKU ENERGY WEEK

Hörmətli tədbir iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi "Bakı Enerji Həftəsi"nin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.
Bu mühüm tədbir enerji sahəsində nailiyyətlərimizin təqdimatı və gələcək prioritetlərin müzakirəsi üçün önəmli platforma rolunu oynayır. Biz artıq sayca 30-cu tədbirdə — yubiley tədbirində iştirak edirik ki, bu da onun uğurlu tarixini və əhəmiyyətini bir daha təsdiqləyir.
"Bakı Enerji Həftəsi" Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş "Caspian Oil & Gas" sərgisinin məntiqi davamı kimi formalaşaraq enerji sahəsində nüfuzlu beynəlxalq hadisəyə çevrilmişdir. Enerji diplomatiyasının inkişafına, strateji tərəfdaşlıqlar qurulmasına və qlobal enerji xəritəsində ölkəmizin mövqeyinin möhkəmlənməsinə töhfə verən bu tədbir ilk milli sərgi brendimiz kimi tarixə düşmüşdür.
Ötən illər ərzində bu təşəbbüs enerji sahəsində qlobal meyillərə uyğun şəkildə genişlənmiş və "Bakı Enerji Həftəsi" formatını almışdır. Ənənəvi enerji mənbələrindən bərpa olunan enerjiyə qədər geniş məzmunda məsələlərin müzakirə edildiyi "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır.
Eyni zamanda, bu tədbir Azərbaycanın enerji sahəsində keçdiyi uğurlu yolun, beynəlxalq nüfuzunun və uzaqgörən strateji baxışının bariz təzahürüdür. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji təchizatının şaxələndirilməsi və yaşıl enerji üzrə davamlı inkişaf bu gün də ölkəmizin əsas prioritetləri sırasındadır. Bu istiqamətdə görülən işlər qlobal enerji bazarında Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş mövqeyini daha da gücləndirir. Tədbirin geniş miqyası və beynəlxalq əhatə dairəsi də bunu təsdiq edir. Dünyanın səksən ölkəsindən şirkətlərin iştirak etdiyi "Bakı Enerji Həftəsi" beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın tutduğu yerin göstəricisidir.
İşğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonası kimi inkişafı isə dayanıqlı enerji strategiyasının əsas istiqamətidir. Uğurlu strateji yanaşmalar enerji sektorunda Azərbaycanın davamlı inkişafı üçün yeni imkanlar yaradır. Həyata keçirilən təşəbbüslər həmçinin ətraf mühitin qorunmasına məsuliyyətli münasibətimizi və enerji sahəsində liderlik iddiamızı əks etdirir.
Əminəm ki, "Bakı Enerji Həftəsi" öz zəngin ənənəsinə və innovasiyaya açıqlıq prinsipinə sadiq qalaraq, beynəlxalq dialoqun dərinləşməsinə, yeni tərəfdaşlıqlar qurulmasına və faydalı əməkdaşlığın inkişafına mühüm töhfə verəcəkdir.
Bugünkü tədbirdə nümayiş etdirilən sərgilər münasibətilə təşkilatçıları və bütün iştirakçıları bir daha təbrik edir, hər birinizə səmərəli müzakirələr, uğurlu layihələr və davamlı əməkdaşlıq arzulayıram!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Distinguished participants of the event,

Dear guests, ladies and gentlemen,

I sincerely greet you on the occasion of the opening of Baku Energy Week.
This important event serves as a significant platform for presenting our achievements in the energy sector and discussing future priorities. Today, we are participating in the 30th edition – a jubilee event – which once again affirms its successful history and importance.
Baku Energy Week has evolved as a logical continuation of the Caspian Oil & Gas Exhibition, which was founded with the initiative and support of National Leader Heydar Aliyev. Over the years, it has grown into a prestigious international event in the energy sector. Contributing to the development of energy diplomacy, the establishment of strategic partnerships, and the strengthening of our country's position on the global energy map, this event holds the distinction of being Azerbaijan's first national exhibition brand.
Throughout the years, this initiative has expanded in line with global trends in the energy sector and has adopted the Baku Energy Week format. Addressing a wide range of topics, from traditional energy sources to renewable energy, Baku Energy Week has gained recognition as an authoritative forum where new approaches and international energy dialogue are shaped.
At the same time, this event is a vivid demonstration of the successful path Azerbaijan has pursued in the energy sector, its growing international reputation, and its farsighted strategic vision. Strengthening energy security, diversifying energy supply, and ensuring sustainable development in the field of green energy remain among our country's top priorities today. The measures taken in this direction further consolidate Azerbaijan's position as a reliable and responsible partner in the global energy market. The event's broad scope and extensive international coverage reaffirm this. With the participation of companies from eighty countries, Baku Energy Week reflects Azerbaijan's prominent role in fostering international energy cooperation.
The development of the liberated territories as a "green energy" zone constitutes one of the main directions of our sustainable energy strategy. Successful approaches create new opportunities for Azerbaijan's continuous growth in the energy sector. The initiatives being implemented also reflect our responsible attitude toward environmental protection and our ambition to lead in the energy industry.
I am confident that Baku Energy Week, remaining true to its rich traditions and commitment to innovation, will continue to make a valuable contribution to the deepening of international dialogue, the establishment of new partnerships, and the promotion of effective cooperation.
On this occasion, I once again congratulate the organisers and all participants of today's exhibitions and wish you productive discussions, successful projects, and long-term cooperation!

**Ilham Aliyev**
**The President of the Republic of Azerbaijan**

# SALAMLAMA MƏKTUBLARI
# WELCOME LETTERS



Hörmətli xanımlar və cənablar,
Sərgi və Forum iştirakçıları!

Sizi Azərbaycanda böyük məmnuniyyətlə salamlayır, Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi, eləcə də 30-cu Yubiley Bakı Enerji Forumunun açılışı münasibətilə təbrik edirəm.
Ulu Öndər Heydər Əliyevin beynəlxalq enerji məkanında Azərbaycana etibarlı tərəfdaş statusu qazandıran neft strategiyasının bəhrəsi olan bu platforma, bu gün Xəzər regionunda yeni enerji təşəbbüslərinin reallaşmasına və əməkdaşlıq dairəsinin genişlənməsinə mühüm töhfə verir.
Xüsusilə qlobal enerji sistemində baş verən dəyişikliklər, dayanıqlı enerji təchizatı ilə bağlı çağırışlar və yeni enerji mənbələrinin artan rolu fonunda enerji təhlükəsizliyinin hələ də qlobal gündəliyin prioritet məsələsi olması Azərbaycanla enerji tərəfdaşlığına marağı artırır. Ölkəmizlə təkcə neft və qaz deyil, həm də "yaşıl enerji" təchizatı sahəsində əməkdaşlıq əlaqələrinin qurulması, Xəzər dənizinin bərpa olunan enerjinin istehsalı, ixracı və tranziti üzrə strateji mərkəzə çevrilməsi aktuallaşır.
Enerji resurslarına balanslı yanaşmaya və marşrutların müxtəlifliyinə əsaslanan rasional enerji siyasəti yürüdən ölkəmiz, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin strateji vizyonuna uyğun olaraq bu gün Xəzər və Mərkəzi Asiya regionları ilə Avropa arasında "yaşıl enerji dəhlizi" təşəbbüsləri ilə çıxış edir. Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan (Naxçıvan)-Türkiyə-Avropa", "Mərkəzi Asiya-Azərbaycan-Avropa" və "Azərbaycan-Gürcüstan-Bolqarıstan-Türkiyə" interkonnektorları gələcəkdə Azərbaycanı bərpa olunan enerjinin əsas ixracatçılarından birinə, "yaşıl enerji"nin nəqli üzrə strateji hab mərkəzinə çevirəcək və ölkəmizin qlobal enerji təhlükəsizliyindəki mövqeyini daha da möhkəmləndirəcək mühüm layihələrdir.
Xəzər hövzəsində Cənub Qaz Dəhlizi və "yaşıl enerji" dəhlizləri çərçivəsində geniş əməkdaşlıq imkanları bir daha göstərir ki, Bakı Enerji Həftəsi uzun illər boyu iştirak edəcəyimiz və mühüm təşəbbüslərin irəli sürüldüyü platforma olaraq qalacaqdır.
İnanıram ki, qarşılıqlı faydalı əməkdaşlığımız ölkələrimizin inkişafına və daha geniş coğrafiyada enerji təhlükəsizliyinin təmininə mühüm töhfə verməyə davam edəcək, Bakı Enerji Həftəsi isə dayanıqlı enerji gələcəyinin qurulmasında bizə etibarlı yol göstərən dialoq məkanı olacaqdır.
Bakı Enerji Həftəsinin bütün iştirakçılarını Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Bakı Enerji Forumunun 30-cu yubileyi münasibətilə bir daha təbrik edir, hər birinizə uğurlar arzulayıram!

Hörmətlə,

Pərviz Şahbazov
Azərbaycan Respublikasının energetika naziri

MINISTRY OF ENERGY OF
THE REPUBLIC OF AZERBAIJAN

Dear Ladies and Gentlemen,
Exhibition and Forum Participants,

It is my great pleasure to welcome you to Azerbaijan and to extend my congratulations on the occasion of the opening of the 30th Anniversary International Caspian Oil and Gas Exhibition, the 13th Caspian International Power and Green Energy Exhibition, and the 30th Anniversary Baku Energy Forum, held within the framework of Baku Energy Week.

This platform, the result of the oil strategy initiated by National Leader Heydar Aliyev, which earned Azerbaijan the status of a reliable partner in the international energy arena, continues to make significant contributions to the implementation of new energy initiatives and the expansion of cooperation across the Caspian region.

Amid ongoing changes in the global energy system, challenges concerning sustainable energy supply, and the growing role of new energy sources, energy security remains a priority issue on the global agenda, further strengthening interest in energy partnerships with Azerbaijan. Today, cooperation is expanding not only in the oil and gas sector but also in the field of green energy supply, with the Caspian Sea gaining prominence as a strategic hub for the production, export, and transit of renewable energy.

Guided by a rational energy policy based on a balanced approach to energy resources and the diversification of supply routes, Azerbaijan – in line with the strategic vision of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev – is currently putting forward initiatives for the development of a "Green Energy Corridor" between the Caspian and Central Asian regions and Europe. The Caspian-Black Sea-Europe, Azerbaijan (Nakhchivan)-Turkey-Europe, Central Asia-Azerbaijan-Europe, and Azerbaijan-Georgia-Bulgaria-Turkey interconnectors are strategic projects which, in the future, will transform Azerbaijan into one of the leading exporters of renewable energy and a strategic hub for green energy transmission, further strengthening the country's role in global energy security.

The extensive opportunities for cooperation in the Caspian basin within the framework of the Southern Gas Corridor and the emerging Green Energy Corridors once again demonstrate that Baku Energy Week will remain a platform where we will actively participate and advance important initiatives for many years to come.

I am confident that our mutually beneficial cooperation will continue to contribute to the development of our countries and the enhancement of energy security across a broader geography, while Baku Energy Week will serve as a trusted venue for dialogue and a reliable guide toward a sustainable energy future.

Once again, I sincerely congratulate all participants of Baku Energy Week on the 30th anniversaries of the International Caspian Oil and Gas Exhibition and the Baku Energy Forum, and I wish each of you every success!

Sincerely,

Parviz Shahbazov
Minister of Energy of the Republic of Azerbaijan



Dear participants of the Baku Energy Forum,

Azerbaijan – a vital participant in the Declaration of Cooperation (DoC) between OPEC and non-OPEC producers – has become a global hub for constructive dialogue on key energy issues.
This was clear at COP 29 and will doubtless be underlined once again at the 30th Baku Energy Forum, a premier event in the region's energy calendar.
With global energy demand forecast to increase by 24% out to 2050, ensuring energy accessibility and enhancing energy security while maintaining energy affordability and reducing emissions requires unprecedented collaboration and pragmatism.
No single form of energy or approach can meet expected future energy demand alone. Instead, our energy future requires massive investment in all energies, with the oil industry alone requiring $17.4 trillion out to 2050.
This is why OPEC Member Countries are looking to invest in all energies and leverage all technologies, showing it is possible to be leaders in renewables and hubs for technological development while producing the oil the world needs now and long into the future, as well as reducing emissions.
This balanced, prudent approach stems from the reality that renewables alone cannot replace the 80% of the global energy mix that hydrocarbons provide today.
At COP 29, His Excellency President Aliyev reaffirmed that hydrocarbons are a "gift from God." If the world is serious about maintaining energy security, it must afford these gifts the investment and respect they deserve while reducing emissions.

I wish you all fruitful discussions.

Sincerely,

Haitham Al Ghais
OPEC Secretary General

OPEC

Hörmətli Bakı Enerji Forumu iştirakçıları!

OPEC və qeyri-OPEC istehsalçıları arasında Əməkdaşlıq Bəyannaməsinin (DoC) vacib iştirakçısı olan Azərbaycan əsas enerji məsələləri üzrə konstruktiv dialoqun qlobal mərkəzinə çevrilmişdir.
Bu, COP 29-da aydın şəkildə özünü göstərdi və şübhəsiz ki, regionun enerji təqvimində önəmli yer tutan 30-cu Bakı Enerji Forumunda bir daha vurğulanacaq.
2050-ci ilə qədər qlobal enerji tələbatının 24% artacağı proqnozlaşdırıldığı bir zamanda, enerji əlçatanlığını təmin etmək, enerji təhlükəsizliyini gücləndirmək, enerjinin qiymət baxımından əlverişliliyini qorumaq və tullantıları azaltmaq üçün unikal əməkdaşlıq və praqmatizm tələb olunur.
Gələcək enerji tələbatını tək bir enerji növü və ya yanaşma ilə ödəmək mümkün deyil. Əksinə, bizim enerji gələcəyimiz bütün enerji növlərinə böyük həcmdə investisiyaları tələb edir. Təkcə neft sənayesinə 2050-ci ilə qədər 17,4 trilyon dollar sərmayə lazımdır.
Məhz buna görə də OPEC üzvü olan ölkələr bütün enerji növlərinə sərmayə qoymağa və bütün texnologiyalardan faydalanmağa çalışırlar. Onlar bərpa olunan enerji mənbələrində lider olmaq, texnoloji inkişaf mərkəzlərinə çevrilmək, eyni zamanda, hazırda və gələcəkdə dünyaya lazım olan nefti istehsal etmək və tullantıları azaltmağın mümkün olduğunu nümayiş edirlər.
Bu balanslaşdırılmış və ehtiyatlı yanaşma ondan irəli gəlir ki, hazırda karbohidrogenlərin təmin etdiyi qlobal enerji balansının 80%-ni yalnız bərpa olunan enerji ilə əvəz etmək mümkün deyil.
COP 29-da Zati-aliləri Prezident İlham Əliyev karbohidrogenlərin "Allahın hədiyyəsi" olduğunu bir daha təsdiq etdi. Əgər dünya enerji təhlükəsizliyini qorumaqda ciddi qərarlıdırsa, bu hədiyyələrə layiqli investisiya qoyulmalı və hörmət göstərilməlidir, eyni zamanda isə tullantılar azaldılmalıdır.

Hamınıza səmərəli müzakirələr arzulayıram.

Hörmətlə,

Haysam Əl-Qays
OPEC-in Baş Katibi



Hörmətli tədbir iştirakçıları,

Sizi Azərbaycanda ənənəvi olaraq keçirilən "Bakı Enerji Həftəsi"ndə, o cümlədən 30-cu yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində, 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisində və 30-cu yubiley Bakı Enerji Forumunda salamlamaqdan böyük məmnunluq duyuram.
Azərbaycanın yeni enerji strategiyasının müəllifi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə 1994-cü ildə keçirilən Beynəlxalq "Xəzər Neft və Qaz Sərgisi" ötən illər ərzində regionda enerji təhlükəsizliyinə, dayanıqlı tərəqqiyə, səmərəli əməkdaşlığa mühüm töhfə verən çoxşaxəli platformaya çevrilib.
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müasir dövrün çağırışlarına uyğun davam etdirdiyi milli enerji strategiyamız bu gün, ənənəvi enerji sahələrinə söykənərək ölkəmizdə həm də innovativ və "yaşıl" iqtisadiyyata keçidin nümunəvi modelini təzahür etdirir.
Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə həyata keçirilən strateji əhəmiyyətli enerji layihələri regionun və Avropanın enerji təhlükəsizliyinin ayrılmaz tərkib hissəsinə çevrilib. İxrac coğrafiyasını daha da genişləndirən Azərbaycan bu gün 12 dövləti, o cümlədən 10 Avropa ölkəsini təbii qazla təchiz edir.
2030-cu ilə qədər "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"nə çevrilməyi sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən biri kimi müəyyənləşdirən Azərbaycan bərpa olunan enerji sahəsində də zəruri addımlar atır. Ötən il ölkəmiz COP29 tədbirinə uğurla ev sahibliyi edərək ətraf mühitin mühafizəsi, enerji keçidi, dekarbonizasiya və iqlim dəyişiklikləri ilə mübarizə məsələlərində qlobal miqyasda həmrəyliyin təmin olunması istiqamətində mühüm nailiyyətlərə imza atdı.
Milli brend və qlobal enerji şirkəti olan SOCAR strateji hədəflərinə uyğun olaraq neft-qaz şirkətindən beynəlxalq enerji şirkətinə transformasiya istiqamətində məqsədyönlü fəaliyyətini uğurla davam etdirir. Ötən il Bakı Enerji Həftəsi çərçivəsində SOCAR ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında üç bərpa olunan enerji layihəsi üzrə Səhmdarlar Sazişləri , həmçinin COP29 çərçivəsində SOCAR, "Masdar" və "ACWA Power" şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda 3,5 giqavatlıq külək elektrik enerjisi istehsalı üzrə əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalandı. SOCAR-ın tərəfdaşlarla birgə həyata keçirdiyi layihələr Azərbaycanın bərpa olunan enerji potensialının inkişafına, regional əməkdaşlığa və enerji təhlükəsizliyinin təmin olunmasına dəyərli töhfə verir.
Qlobal miqyasda metan emissiyalarının azaldılması sahəsində ciddi niyyətini və bu istiqamətdə elan etdiyi dekarbonizasiya hədəflərinə sadiqliyini nümayiş etdirən SOCAR 2024-cü ildə "OGMP2.0" tərəfdaşlığına qoşuldu. SOCAR, həmçinin "ESG" (Ətraf mühit, Sosial və İdarəetmə) ilə bağlı aparıcı beynəlxalq reytinq agentliyi olan "MSCI" şirkəti tərəfindən 2024-cü il üzrə BBB ilkin reytinqini əldə edib. Bu nailiyyət SOCAR-ın karbon emissiyalarının və tullantıların azaldılması, ictimaiyyətlə əlaqələr, biomüxtəliflik, sağlamlıq və təhlükəsizlik, idarəetmə və şəffaflıq sahələrində əldə etdiyi uğurların təzahürüdür.

Hörmətli tədbir iştirakçıları,

Bakı Enerji Həftəsi mühüm enerji məsələlərinin geniş müzakirə olunduğu, ən son texnologiyalar və rəqəmsal həllər üzrə təcrübə mübadiləsinin aparıldığı nüfuzlu platforma olaraq iştirakçılara faydalı əməkdaşlıq imkanları təqdim edir. İnanıram ki, bu ilki tədbirlər də dünyanın aparıcı enerji şirkətlərini bir araya gətirməklə, Bakı Enerji Həftəsinin qlobal enerji təhlükəsizliyinin təmin olunması, mövcud çağırışların həlli və enerji sektorunun dayanıqlı inkişafında oynadığı rolu daha da möhkəmləndirəcəkdir.

Ən xoş arzularla,

Rövşən Nəcəf
SOCAR-ın prezidenti

Dear event participants,

It is my great pleasure to welcome you to the Baku Energy Week, traditionally held annually in Azerbaijan, which encompasses the 30th Anniversary International Caspian Oil and Gas Exhibition, the 13th Caspian International Power and Green Energy Exhibition, and the 30th Anniversary Baku Energy Forum.

The International Caspian Oil and Gas Exhibition, first held in 1994 at the initiative of National Leader Heydar Aliyev, the architect of Azerbaijan`s new energy strategy, has over the years transformed into a multifaceted platform. It has made vital contributions to energy security, sustainable development, and effective cooperation in the region.

Our national energy strategy, successfully continued by the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, in accordance with the contemporary global challenges, today manifests itself as an exemplary model for the transition to an innovative and green economy in Azerbaijan, while remaining rooted in the country`s traditional energy sectors.

Strategic energy projects implemented through Azerbaijan`s initiative and direct involvement have become an integral component of both regional and European energy security. By further expanding its export geography, Azerbaijan currently supplies natural gas to 12 countries, including 10 European states.

Having defined its transformation into a `Clean Environment and Green Growth Country` by 2030 as one of its five national socio-economic development priorities, Azerbaijan is also taking essential steps in the renewable energy sector. Last year, our country successfully hosted COP29, marking significant achievements in ensuring global solidarity in environmental protection, energy transition, decarbonization, and combating climate change.

As a national brand and global energy company, SOCAR successfully continues its purposeful transformation from an oil and gas enterprise into an international energy company, in line with its strategic objectives. Last year, within the framework of Baku Energy Week, SOCAR and UAE`s Masdar signed Shareholder Agreements for three renewable energy projects, and during COP29, SOCAR, Masdar and ACWA Power signed a Memorandum of Understanding to cooperate on the production of 3.5 gigawatts of wind power in the Azerbaijani sector of the Caspian Sea. These joint projects make a valuable contribution to the development of Azerbaijan`s renewable energy potential, regional cooperation, and the enhancement of energy security.

Demonstrating its strong commitment to reducing global methane emissions and its adherence to announced decarbonization targets, SOCAR joined the OGMP2.0 partnership in 2024. Furthermore, SOCAR obtained a preliminary BBB rating for 2024 from MSCI, a leading international rating agency in the field of Environmental, Social, and Governance (ESG). This achievement reflects SOCAR`s successes in reducing carbon emissions and waste, improving public relations, supporting biodiversity, ensuring health and safety, and strengthening governance and transparency.

Dear event participants,

Baku Energy Week continues to serve as a distinguished platform for wide-ranging discussion of critical energy issues and for the exchange of expertise on the latest technologies and digital solutions, offering participants valuable opportunities for cooperation. I am confident that this year`s events, by bringing together the world`s leading energy companies, will further reinforce the role of Baku Energy Week in ensuring global energy security, addressing current challenges, and supporting the sustainable development of the energy sector.

Best Wishes,

Rovshan Najaf<br>President of SOCAR



Hörmətli Forum iştirakçıları!

Təşkilat Komitəsi adından sizi 30-cu yubiley Bakı Enerji Forumunda salamlayır və məhsuldar işlər arzulayırıq.
Üç onillik ərzində Bakı Enerji Forumu sənaye liderləri, aparıcı şirkətlər və mütəxəssislər üçün əsas platforma kimi xidmət edir. Forum bilik mübadiləsi, yeni perspektivlərin araşdırılması və enerji sektorunun gələcəyinin birgə formalaşdırılması üçün unik imkanlar yaradır. 1994-cü ildə, Böyük dövlət xadimi, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin dəstəyi ilə, əlamətdar "Əsrin Müqaviləsi"nin imzalanması ərəfəsində başlayan bu forum, Azərbaycanın iri investisiya regionu kimi inkişafının əsasını qoyan mühüm hadisəyə çevrilmişdir.
Bu gün Bakı Enerji Həftəsi və onun əsas tədbiri olan Bakı Enerji Forumu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin davamlı dəstəyi ilə uğurla inkişafını davam etdirir.
Bakı Enerji Forumu təkcə konstruktiv dialoq və yeni layihələrin həyata keçirilməsi üçün vacib platforma deyil, həm də ən yüksək səviyyədə əməkdaşlıq üçün unikal məkan və zamandır. Burada strateji qərarlar qəbul edilir və işgüzar əlaqələr möhkəmlənir.
Enerji keçidi və qlobal çağırışlar şəraitində birgə səylər və təcrübə mübadiləsi xüsusi əhəmiyyət kəsb edir. Hər il beynəlxalq iştirakçıların sayının artmasını məmnunluqla qeyd edirik: bu il 30 ölkədən, o cümlədən yeni tərəfdaşlar olmaqla, 600-dən çox nümayəndə aktual məsələlərin müzakirəsinə qoşulacaq.
Forum çərçivəsində əsas mövzularda müzakirələr planlaşdırılmışdır:
- Beynəlxalq enerji əməkdaşlığı, enerji mənbələrinin və tədarük marşrutlarının diversifikasiyası;
- Qazma və istismar: innovasiya və davamlı inkişaf yolu ilə səmərəliliyin artırılması;
- İqlim gündəliyinin qlobal enerji mənzərəsinə və beynəlxalq əməkdaşlıq strukturuna təsiri, eləcə də digər vacib istiqamətlər.

2025-ci ilin plenar sessiyasının mövzusu: "Davamlı və etibarlı enerji gələcəyi üçün qlobal əməkdaşlıq".
Forumun təşkilində göstərilən əvəzsiz dəstəyə görə Azərbaycan Respublikasının Energetika Nazirliyinə və SOCAR-a səmimi təşəkkürümüzü bildiririk. Həmçinin tədbirin uğurlu keçirilməsinə və əsas təşəbbüslərin dəstəyinə verdikləri töhfəyə görə sponsorlara minnətdarlığımızı ifadə edirik.
Forum iştirakçılarını yubileylə təbrik edir, enerji sahəsinin inkişafı və regionun rifahı naminə yeni uğurlar, məhsuldar fəaliyyət və parlaq nailiyyətlər arzulayırıq!

Hörmətlə,

Farid Məmmədov
"Iteca Caspian" şirkətinin direktoru

Dear Forum Participants,

On behalf of the Organising Committee, it is our pleasure to welcome you to the 30th Anniversary Baku Energy Forum and to wish you a productive and successful event.
For three decades, the Baku Energy Forum has served as a key platform for industry leaders, major companies, and energy experts to meet, exchange knowledge, explore new opportunities, and shape the future of the global energy sector together. Launched in 1994, on the eve of the signing of the landmark "Contract of the Century" and with the support of the great statesman and National Leader of the Azerbaijani people, Heydar Aliyev, this forum marked an important milestone that paved the way for Azerbaijan's emergence as a significant investment destination.
Today, Baku Energy Week and its central event — the Baku Energy Forum — continue to thrive under the constant support of His Excellency Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan.
The Baku Energy Forum is not only a vital platform for constructive dialogue and the implementation of new projects but also a unique setting for interaction at the highest level — where strategic decisions are made and business relations are strengthened.
In the context of the global energy transition and emerging international challenges, joint efforts and the exchange of expertise are more important than ever. We are pleased to note that the number of international participants continues to grow year after year. This year, over 600 representatives from 30 countries — including new partners — will join the discussions on the most pressing issues shaping the energy agenda.
The forum's programme will feature a series of discussions on key topics, including:

- International energy cooperation, diversification of supply sources and routes;
- Field development and operation: enhancing efficiency through innovation and sustainable practices;
- The impact of the climate agenda on the global energy landscape and the structure of international cooperation,

along with other vital subjects.
The theme of the 2025 Plenary Session will be "Global Collaboration for a Sustainable and Secure Energy Future."
We extend our sincere gratitude to the Ministry of Energy of the Republic of Azerbaijan and SOCAR for their invaluable support in organising this forum. We also thank our sponsors for their contribution to the successful organisation of the event and for supporting its key initiatives.
Congratulations to all participants on this remarkable anniversary. We wish you continued success, productive work, and new achievements for the benefit of Azerbaijan's energy development and the prosperity of the entire region.

With warmest regards,

Farid Mammadov
Director of Iteca Caspian

# SPONSORLARIN SİYAHISI
# LIST OF SPONSORS

## BAŞ TƏRƏFDAŞ – GENERAL PARTNER

SOCAR

## QIZIL - GOLD SPONSOR

ACWA POWER
أكوا باور

## QIZIL - GOLD SPONSOR

bp

## QIZIL - GOLD SPONSOR

مصدر
MASDAR

## QIZIL - GOLD SPONSOR

MOLGROUP

## QIZIL - GOLD SPONSOR

MVM

## QIZIL - GOLD SPONSOR

TotalEnergies

## QIZIL - GOLD SPONSOR

XRG

## GÜMÜŞ - SILVER SPONSOR

GAP İNŞAAT

## GÜMÜŞ - SILVER SPONSOR

INPEX

## BÜRÜNC - BRONZE SPONSOR

ABB

# WE DELIVER SOLUTIONS FOR TOMORROW.




SHAPE TOMORROW

MOLGROUP

5 years in ACG



# TƏMİZ TEXNOLOGİYALAR ÜZRƏ LİDER

Hər 3 sahədə ixtisaslaşmış və liderlik edən yeganə şirkət:

Suyun duzsuzlaşdırılması
Bərpaolunan enerji
Yaşıl hidrogen

# Clean Tech Leader

Only company in the world to lead in three technologies

Water desalination
Renewables
Green hydrogen








## BÜRÜNC - BRONZE SPONSOR

HUAWEI

## BÜRÜNC - BRONZE SPONSOR

INTI
INSTITUTE FOR INITIATIVES IN OIL AND GAS TECHNOLOGIES

## BÜRÜNC - BRONZE SPONSOR

SAIPEM

## BÜRÜNC - BRONZE SPONSOR

slb™

## BÜRÜNC - BRONZE SPONSOR

TÜRKİYE PETROLLERİ
ANONİM ORTAKLIĞI

## RƏSMİ BANK OFFICIAL BANK

PASHA Bank
New heights. Together.

## İNTELLEKTUAL TƏRƏFDAŞ
## INTELLECTUAL PARTNER

BCG

## KONSALTINQ TƏRƏFDAŞ
## CONSULTİNG PARTNER

Deloitte.



Energy is
reinventing itself,
Total is becoming
TotalEnergies.

TotalEnergies


mvm.hu
ENERGY.
FOR US


XRG
ENERGY INVESTMENT ON A GLOBAL SCALE
The future of energy is here.
We are investing across the energy value chain on an unprecedented scale, to accelerate the transformation of energy systems and supercharge lower-carbon growth.
We invest across three platforms – Chemicals, Gas, and Low Carbon Energies –to collectively enable a smarter, cleaner, and more sustainable energy future.
›Energy Potential. Unlocked. xrg.com

BAKU ENERGY FORUM 30

# MƏRUZƏÇİLƏRİN TƏRCÜMEYİ-HALLARI



# PƏRVİZ ŞAHBAZOV

## AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRİ

Pərviz Oqtay oğlu Şahbazov 1969-cu il noyabrın 24-də Bakı şəhərində anadan olub.

1986-1992-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında təhsil alıb. 1988-1989-cu illərdə hərbi xidmətdə olub.

1990-cı ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq iqtisadi münasibətlər şöbəsində təcrübəçi kimi diplomatik fəaliyyətə başlayıb.

1992-1996-cı illərdə Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyində attaşe, 1996-2001-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Avropa, ABŞ və Kanada ölkələri idarəsində ikinci katib, birinci katib, şöbə müdiri, idarə rəisinin müavini vəzifələrində çalışıb.

2001-2005-ci illərdə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfirliyinin müşaviri, daha sonra isə müvəqqəti işlər vəkili olub.

2005-ci ildə ATƏT-in Təhlükəsizlik Əməkdaşlıq Forumunun sədri olub.

2005-ci ildə Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib və bu vəzifədə 2016-cı ilə qədər fəaliyyət göstərib.

2016-2017-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri olub. 12 oktyabr 2017-ci ildə Azərbaycan Respublikasının Energetika naziri təyin edilib.

Azərbaycan, rus, ingilis və alman dillərində sərbəst danışır. Ailəlidir. İki övladı var.



# VİRİATU LUİS SOARES KASSAMA

## QVİNEYA-BİSAU RESPUBLİKASININ ƏTRAF MÜHİT, BİOMÜXTƏLİFLİK VƏ İQLİM DƏYİŞİKLİYİ ÜZRƏ FƏALİYYƏTLƏR NAZİRİ

Dr. Viriatu Luís Soares Kassama ətraf mühit idarəçiliyi və iqlim siyasəti sahəsində tanınmış liderdir. O, 2023-cü ilin dekabr ayından etibarən Qvineya-Bisau Respublikasının Ətraf Mühit, Biomüxtəliflik və İqlim Dəyişikliyi üzrə Fəaliyyətlər Naziri vəzifəsini icra edir. Əvvəllər Prezidentin Ətraf Mühit və İqlim Məsələləri üzrə Müşaviri (2023), Ətraf Mühit və Biomüxtəliflik Naziri (2020–2023), həmçinin Ətraf Mühit üzrə Baş Direktor (2016–2020) olub.

Dr. Kassama Lissabon Açıq Universitetindən Qlobal Araşdırmalar üzrə fəlsəfə doktoru (PhD) dərəcəsinə, Lissabon Texniki Universitetindən Geo-resurslar və Təbii Ehtiyatların İdarəolunması üzrə magistr dərəcəsinə və Yeni Lissabon Universitetindən Ətraf Mühit Mühəndisliyi üzrə beşillik bakalavr dərəcəsinə malikdir. Həmçinin o, Bakı Neft Akademiyasında Kimya və Neft Mühəndisliyi üzrə təhsil almışdır.

Peşəkar fəaliyyətində Dr. Kassama davamlı inkişaf və iqlimə uyğunlaşma sahələrində dərin öhdəlik nümayiş etdirmişdir. O, Qvineya-Bisaunu BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində əsas danışıqlar aparan şəxs və milli koordinator kimi təmsil etmiş, REDD İşçi Qrupunun koordinatoru və Yaşıl İqlim Fondu, Adaptasiya Fondu və İqlim İnvestisiya Fondu üzrə əlaqələndirici olmuşdur.

Dr. Kassama bir sıra ətraf mühitin idarə olunması və iqlimə uyğunlaşma layihələrinə rəhbərlik etmişdir, o cümlədən BMTİP/GEF tərəfindən dəstəklənən layihələrə. O, həmçinin Kioto Protokolunun icrasında ölkəsini təmsil etmiş və PALOPS (Portuqal Dilli Afrika Ölkələri) üzrə ekoloji məsələlər üzrə aparıcı tədqiqatçı kimi fəaliyyət göstərmişdir.

İyirmi ildən artıq yüksək vəzifəli dövlət və beynəlxalq təcrübəyə malik olan Dr. Kassama Qvineya-Bisaunun davamlı inkişafına mühüm töhfə verməkdə davam edir.



## ABDULLAHI BIDHAAN VARSAME

SOMALİ FEDERATİV RESPUBLİKASININ ENERGETİKA VƏ SU EHTİYATLARI NAZİRİ

Federal hökumətin Enerji və Su Resursları naziri cənab Abdullahi Bidhaan Varsame Somalinin enerji və su sektorlarının inkişafını transformasiya etmək üçün milli su və enerji siyasətləri, strategiyaları və planlarının həyata keçirilməsinə diqqət göstərir.



## YALÇIN RƏFİYEV

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ / COP29 ÜZRƏ BAŞ DANİŞIQÇIÇI

Yalçın İlqar oğlu Rəfiyev 9 fevral 1987-ci ildə Şəmkir şəhərində anadan olub. 2007-ci ildə Bakı Dövlət Universitetinin "Beynəlxalq Hüquq və Beynəlxalq Münasibətlər" fakültəsinin "Beynəlxalq Münasibətlər" ixtisası üzrə bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib. 2010-2011-ci illərdə İtaliyanın Roma şəhərində yerləşən NATO Müdafiə Kollecində Ali Kursunda, 2014-2016-cı illərdə isə Avstriyanın Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasının "Korrupsiyaya qarşı mübarizə üzrə mütəxəssis" proqramı üzrə magistr proqramında təhsil alıb.

Peşəkar fəaliyyətə 21 sentyabr 2007-ci il tarixində Xarici İşlər Nazirliyinin (XİN) Təhlükəsizlik Problemləri İdarəsində referent vəzifəsində başlayıb. 2009 – 2011-ci illərdə XİN-in Təhlükəsizlik Problemləri İdarəsinin attaşesi;

2011 – 2013-cü illərdə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin üçüncü katibi;

2013– 2015-ci illərdə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyinin ikinci katibi;

2016 – 2017-ci illərdə AR Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin birinci katibi;

2017 – 2018-ci illərdə Azərbaycan Respublikasının Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin birinci katibi;

2018-ci ilin avqust ayından 2019-cu ilin sentyabr ayınadək AR Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəis müavini;

2019-cu il sentyabr ayından 2023-cü ilin sentyabr ayınadək AR Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi vəzifəsində çalışıb. Azərbaycan Respublikası Prezidentinin 8 sentyabr 2023-cü il tarixli sərəncamı ilə xarici işlər nazirinin müavini təyin olunub.

Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2021-ci il tarixli sərəncamı ilə Y. Rəfiyevə "ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi" rütbəsi verilib. 9 iyul 2019-cu il tarixində Diplomatik xidmət orqanlarındakı fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Diplomatik xidmətdə fərqlənmə" medalı ilə təltif olunub. Ailəlidir, iki övladı var.



# SAMİR MƏMMƏDOV

## AZƏRBAYCAN RESPUBLİKASI RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRİNİN MÜAVİNİ

1993-1998: ABŞ-ın "Relief International" humanitar yardım təşkilatında müxtəlif vəzifələrdə çalışmışdır.
1998: "Unocal Khazar Ltd." neft şirkətində xüsusi layihələr üzrə koordinator vəzifəsində işləmişdir.
1998-1999: "Mobil Exploration & Producing Azerbaijan Inc." şirkətində menecer vəzifəsində çalışmışdır.
1999-2006: ABŞ-ın "Relief International" humanitar yardım təşkilatının Azərbaycan nümayəndəliyinin direktor müavini, daha sonra direktoru vəzifəsində işləmişdir.
2006: Azərbaycan Respublikası Təhsil Nazirliyinə "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nın idarəetmə qrupunun müdiri vəzifəsinə təyin olunmuşdur.
2008-2017: Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi vəzifəsində çalışmışdır.
2017-2019: Bakı Mühəndislik Universitetində işləmişdir.
2019: "Enginet İnvest" MMC-də direktor vəzifəsində çalışmışdır.
2021: Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının rəhbəri vəzifəsinə təyin olunmuşdur.
2022: Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 may tarixli Sərəncamı ilə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilmişdir.



# ƏHMƏD BERAT ÇONKAR

## TÜRKİYƏ RESPUBLİKASININ ENERGETİKA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİNİN MÜAVİNİ

Ahmet Berat Çonkar əslən Bolu-Geredelidir, 1976-cı ildə Ankarada anadan olub. Boğaziçi Universitetində Biznesin idarə olunması ixtisası üzrə bakalavr təhsili alıb. Daha sonra ABŞ-da Mayami Universitetində Biznesin idarə olunması (MBA) və Beynəlxalq Biznes ixtisasları üzrə magistratura təhsilini tamamlayıb (2002).
O, Türkiyə və ABŞ-da beynəlxalq biznes və maliyyə sahələrində təxminən on il ərzində müxtəlif rəhbər vəzifələrdə çalışıb. 2007-ci ildə parlament seçkilərində namizədliyini irəli sürdükdən sonra, dörd il ərzində Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın beynəlxalq siyasi və iqtisadi məsələlər üzrə müşaviri kimi fəaliyyət göstərib.
Ahmet Berat Çonkar 2011-ci ildə İstanbuldan millət vəkili seçilib və 2023-cü ilə qədər Ədalət və İnkişaf Partiyasından (AKP) dörd müddət boyunca Türkiyə Böyük Millət Məclisinin üzvü olub. Bu müddət ərzində Xarici Əlaqələr Komitəsinin sədri, Türkiyə-Rusiya Vətəndaş Forumu həmsədri, Türkiyə-Avropa İttifaqı Birgə Parlament Komitəsinin həmsədri, həmçinin NATO Parlament Assambleyasında Türkiyə nümayəndə heyətinin rəhbəri kimi mühüm vəzifələrdə çalışıb.
22 iyun 2023-cü il tarixində Energetika və Təbii Sərvətlər nazirinin müavini təyin olunub. Eyni zamanda, Türkiyə-Rusiya Vətəndaş Forumunun həmsədri kimi fəaliyyətini davam etdirir. O, həmçinin neft, qaz və mədən kəşfiyyatı və hasilatı ilə məşğul olan TP-OTC və MTA International dövlət şirkətlərinin rəhbəridir və Türkiyə Neft Şirkətinin (TPAO) İdarə Heyətinin üzvüdür.
Ahmet Berat Çonkar evlidir, üç övladı var. İngilis dilini sərbəst bilir, ispan dilində isə işlək səviyyədə danışır.



# SAŞA KOKOVİÇ

## SERBİYA RESPUBLİKASI MƏDƏNÇİLİK VƏ ENERGETİKA NAZİRLİYİNİN NEFT VƏ QAZ ÜZRƏ İCRAÇI NAZİR MÜAVİNİ

Cənab Saşa Kokoviç 25 noyabr 1969-cu il tarixində Belqradda anadan olub. O, Belqrad Universitetinin Mexanika mühəndisliyi fakültəsini, Proses texnologiyası ixtisası üzrə bitirib. Diplom işinin mövzusu "135,000 m3/saat tutuma malik müəssisədə yüksək soba qazının təmizlənməsi prosesinin konseptual həlli" olmuşdur və bu iş "Smederevo Ironworks" həyata keçirilmişdir.
Qaz və neft sənayesində (maye qaz, LNG, sıxılmış qaz, neft və qaz nəqli boru kəmərləri, məhsul kəmərləri, qaz anbarları və s.) 35 illik iş təcrübəsinə malikdir. Öz peşəkar fəaliyyətində PE Energogas, PE Srbijagas və Transportgas Srbija şirkətlərində müxtəlif vəzifə və strukturlarda çalışmışdır. 2019–2023-cü illər ərzində İnkişaf və İnvestisiyalar üzrə Baş mühəndis, habelə Qaz nəqli üzrə Baş mühəndis vəzifələrində çalışıb.
Serbiya Respublikasının təbii qazın nəqli və paylanması sisteminin investisiya layihələrinin həyata keçirilməsi prosesində ekspert nəzarəti üzrə komandanın üzvü qismində və digər mühüm obyektlərin inşasında iştirak etmişdir.
2007-ci ildə İtaliyanın "Tuscia Universiteti" tərəfindən təşkil olunmuş "İqlim dəyişmələri və davamlı ekoloji inkişaf" və "Tullantı materiallar, bərpa olunan bio-materiallar və bərpa olunan enerji potensialı" mövzularında təlim və seminarları uğurla başa vurmuşdur.
Mədənçilik və Energetika Nazirliyinin Neft və Qaz üzrə İcraçı Nazir Müavini vəzifəsinə bu Nazirliyin Neft və Qaz sektoru üzrə xüsusi müşaviri vəzifəsindən təyin olunub.
İngilis dilində sərbəst danışır.
Evli və üç övladı var.



# TOMAS POJAR

## ÇEX RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ MƏSLƏHƏTÇİSİ

Səfir Tomáš Pojar Çex Respublikası Hökumətinin Milli Təhlükəsizlik üzrə Müşaviridir. O, həmçinin Baş nazirin Avropa İttifaqı məsələləri üzrə "şerpası" və baş diplomatik müşaviri kimi fəaliyyət göstərir.
2014–2022-ci illərdə səfir Pojar Praqada yerləşən CEVRO İnstitutunda Beynəlxalq Əlaqələr üzrə vitse-prezident vəzifəsində çalışıb, həmçinin müdafiə, təhlükəsizlik və xarici siyasət üzrə müstəqil məsləhətçi olub. 2010–2014-cü illərdə Çex Respublikasının İsraildəki səfiri olub. Bundan əvvəl, 2006–2010-cu illərdə o, Çexiyanın Xarici İşlər Nazirliyində Təhlükəsizlik, Aİ məsələləri və Avropa ölkələri ilə ikitərəfli münasibətlərə cavabdeh olan birinci müavin, 2005–2006-cı illərdə isə ikitərəfli əlaqələrə cavabdeh nazir müavini vəzifəsində çalışıb.
Səfir Pojar 2005-ci ildə Çexiya diplomatik xidmətinə qoşulub. Ondan əvvəl isə Mərkəzi Avropanın ən böyük humanitar təşkilatı olan People in Need Fondunun icraçı direktoru olub.
O, Çexiya xüsusi təyinatlı qüvvələrinin ehtiyatda olan polkovnik-leytenantıdır. Səfir Pojar bir sıra nüfuzlu mükafatlara layiq görülüb, o cümlədən Ukraynanın Yaroslav Müdrik ordeni, Şərəf ordeni, Çexiya Müdafiə Nazirliyinin Xidmətlərə görə xaçı, Jagello 2000 Yubiley medalı, General Rudolf Medek xatirə nişanı, və Dünya İqtisadi Forumunun Young Global Leader (Gənc Qlobal Lider) mükafatı.
Onun rəhbərliyi dövründə People in Need təşkilatı Çexiya Xarici İşlər Nazirliyinin Gratias Agit mükafatına, həmçinin Aİ və ABŞ Demokratiya və Vətəndaş Cəmiyyəti Mükafatına layiq görülüb.

Yeni dövrdə real iqtisadiyyatın

**aparıcı qüvvəsi**




www.gapinsaat.com
GAP İNŞAAT
INVESTING
IN THE FUTURE
BY ADDING
VALUE
TO PEOPLE
AND
THE WORLD!



## KAROLİNA NOVAK

MOLDOVA RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİNİN DÖVLƏT KATİBİ

Karolina Novak Moldova Respublikasının Energetika Nazirliyində Dekarbonizasiya üzrə Dövlət Katibidir. Bu vəzifədə o, ölkədə bərpa olunan enerji mənbələrinin təşviqi, enerji səmərəliliyinin artırılması və Moldovanın Avropa enerji bazarına inteqrasiyasının asanlaşdırılması istiqamətində milli səylərə rəhbərlik edir. 2022 fevral – 2023 fevral: Moldova Respublikasının Baş Nazir Kabinetində Enerji Məsləhətçisi; 2020 noyabr – 2022 yanvar: National Grid, Birləşmiş Krallıqda Avropa Siyasəti və Qanunvericiliyi üzrə Menecer; 2019–2020: ENTSOG (Avropa Qaz Dağıtım Operatorları Şəbəkəsi), Brüssel, Siyasət Məsləhətçisi; 2018: Weber Shandwick Public Affairs Konsaltinqində AB İctimai Əlaqələr Enerji Komandasında Təcrübəçi, Brüssel; 2017: Avropa Komissiyasında Blue Book Təcrübəçisi, DG Tədqiqat və İnnovasiya, İnnovasiya Bölməsi, Brüssel; 2016–2017: Rompres Xəbər Agentliyində Redaktor, Beynəlxalq Xəbərlər Şöbəsi; 2015–2016: Ruminiyada Danimarka Səfirliyində Köməkçi Analitik; 2014–2015: Buxarestdə Energy Policy Group düşüncə mərkəzində Junior Analitik. Bərpa Olunan Enerji Auksionları: Moldovanın ilk bərpa olunan enerji auksionunu təşkil etmişdir; burada 60 MV günəş və 105 MV külək enerjisi üçün yer ayrılmış, 190 milyon avro həcmində özəl investisiya cəlb etməyi və milli elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını təxminən 8% artırmağı hədəfləmişdir. Sərhədlərarası Enerji İnteqrasiyası: Moldovanın enerji şəbəkəsini Rumıniyanın şəbəkəsi ilə birləşdirəcək Suceava–Bălți 400 kV ötürücü xəttinin tikintisini təşviq etmiş, enerji təhlükəsizliyinin artırılması və Avropa enerji şəbəkəsinə inteqrasiyanın asanlaşdırılması məqsədi daşıyır. Enerji Səmərəliliyi İslahatları: Qanunvericilikdə dəyişikliklər həyata keçirərək sakinlərə və yerli idarəetmələrə günəş panelləri quraşdırmaq imkanı yaratmış, bununla da desentralizə edilmiş bərpa olunan enerji istehsalını və yaşayış sektorunda enerji səmərəliliyini artırmışdır.



## VAXTANQ TSINTSADZE

GÜRCÜSTANIN İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİNİN MÜAVİNİ

2022-ci ilin dekabrından Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini vəzifəsində çalışır. 2022-ci ilə qədər cənab Vaxtanq Gürcüstanın iqtisadiyyat və və davamlı inkişaf nazirliyinin iqtisadi inkişafın iəhlili departamentinə rəhbərlik etmişdir.

Cənab Vaxtanq Gürcüstan Texniki Universitetində biznes idarəçiliyi üzrə bakalavr və magistr dərəcələrinə malikdir və həmin universitetdə dövlət idarəçiliyi üzrə doktorantdır.

O, iqtisadi islahatların həyata keçirilməsində iştirak etmişdir: pensiya islahatının (ikinci sütun) konsepsiyasının hazırlanması və islahatın iqtisadi təsirlərinin qiymətləndirilməsi/təhlili; dövlət-özəl tərəfdaşlıq konsepsiyasının və çərçivə qanunvericiliyinin hazırlanması; iflas islahatı çərçivəsində çərçivə qanunvericiliyinin hazırlanması; maliyyəyə çıxış mexanizmlərinin hazırlanması – kredit zəmanət sxeminin yaradılması; ipoteka kreditlərinin subsidiyalaşdırılması və zəmanət proqramlarının hazırlanması; alternativ maliyyələşdirmə mexanizmlərinin hazırlanması – lizinqin inkişaf konsepsiyası və faktorinq qanunvericiliyinin hazırlanması; subsoil sektoru islahatı konsepsiyasının hazırlanması.

İngilis, rus və alman dillərini bilir.



# ALİ PERVAİZ MALİK

## İSLAM RESPUBLİKASI PAKİSTANIN ENERGETİKA FEDERAL NAZİRİ (NEFT BÖLMƏSİ)

2025-indiyədək – Pakistan İslam Respublikası Energetika üzrə Federal Naziri (Neft Bölməsi): 2025-ci ilin mart ayında hörmətli Baş nazir Şahbaz Şərifin kabinetində Neft və Təbii Sərvətlər portfelinə rəhbərlik etmək üçün təyin olunmuşdur. Həmçinin, çoxtərəfli tərəfdaşlarla birgə islahat gündəmini həyata keçirən əsas İqtisadi Komandanın üzvüdür. 2019-cu ildən bəri Pakistan Müsəlman Liqası (N) İqtisadi Məsləhət Şurasının da üzvüdür.
2023-indiyədək – Aitchison Kolleci, Lahor – İdarə Heyətinin üzvü
2024–2025 – Pakistan İslam Respublikası Maliyyə, Gəlir və Enerji üzrə Dövlət Naziri: 2024-cü ildə Lahordan PML (N) bileti ilə yenidən seçildikdən sonra hörmətli Baş nazir Şahbaz Şərifin kabinetinə daxil olmuşdur.
2018–2023 – Pakistan Milli Assambleyasının üzvü; həmçinin Maliyyə, Gəlir və İqtisadi İşlər, eləcə də Dəmir Yolları üzrə Daimi Komitələrdə çalışmışdır.
2015–2018 – Pakistan Hökumətinin İnvestisiya Şurasının (BOI) üzvü.
2014–2018 – Pəncab Hökumətinə məxsus Quaid-e-Azam Günəş Enerjisi Şirkəti (Qapalı Məhdud Məsuliyyətli Cəmiyyət) İdarə Heyətinin üzvü.
2013–2018 – Pakistanın aparıcı tekstil assosiasiyası olan Bütün Pakistan Tekstil Fabrikləri Assosiasiyasının (APTMA) İcraiyyə Komitəsinin üzvü. Eyni zamanda APTMA-nın Pəncab zonası üzrə sədri olmuşdur.
2009–2018 – Pəncab Hökumətinin Texniki Təhsil və Peşə Təlimi İdarəsinin (TEVTA) İdarə Heyətinin üzvü.



# MUXTAR BABAYEV

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İQLİM MƏSƏLƏLƏRİ ÜZRƏ NÜMAYƏNDƏSİ, COP29 PREZİDENTİ

Muxtar Babayev 5 fevral 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi təyin edilmişdir.
Bu vəzifədə cənab Babayev Azərbaycan Prezidentinin iqlim dəyişikliyi və ətraf mühitlə bağlı çağırışların həllinə dair rəsmi nümayəndəsidir.
Muxtar Babayev bundan əvvəl, 4 yanvar 2024-cü il tarixində COP29-un Prezidenti vəzifəsini icra edirdi.
O, 2018-ci ildən bəri Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri vəzifəsində çalışır. Onun rəhbərliyi ilə Nazirlik ölkənin ətraf mühitinin yaxşılaşdırılması və yaşıl inkişafın təşviqi sahəsində mühüm təşəbbüslərə rəhbərlik etmiş, o cümlədən "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlər" sənədinin hazırlanmasına töhfə vermişdir.
Nazir olduğu dövrdə rəhbərlik etdiyi qurum həmçinin "Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası"nın hazırlanmasında əsas rol oynamışdır. Bu sənəddə biomüxtəlifliyin qorunması, meşələrin bərpası, ətraf mühitin mühafizəsi və bərpa olunan enerji sahəsində yeni hədəflər müəyyən olunmuşdur.
Cənab Babayev karyerasına Azərbaycan Silahlı Qüvvələrində başlamış, daha sonra İqtisadiyyat və Planlaşdırma üzrə Dövlət Komitəsində, eləcə də Xarici İqtisadi Əlaqələr Nazirliyində çalışmışdır. O, 1994-cü ildə Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) qoşulmuş və 2018-ci ilə qədər müxtəlif vəzifələrdə çalışmışdır. 2007–2010-cu illərdə SOCAR-da ekologiya üzrə vitse-prezident vəzifəsində çalışaraq şirkətin ətraf mühitə təsirini azaltmaq üçün aparılan işlərə rəhbərlik etmişdir.
2010-cu ildə Muxtar Babayev Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş, daha sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü olmuşdur.
2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni, 2012-ci ildə isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.
O, Moskva Dövlət Universitetinin Fəlsəfə fakültəsində siyasi elmlər üzrə, Azərbaycan Universitetində xarici iqtisadi əlaqələr üzrə, həmçinin Ümumrusiya Xarici Ticarət Akademiyasında dünya iqtisadiyyatı üzrə ali təhsil almışdır.



# KRİSTİNA LOBİLLO BORRERO

## ENERJİ PLATFORMASININ İŞÇİ QRUPUNUN VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR İDARƏSİNİN – ENERJİ ÜZRƏ BAŞ DİREKTORU / EUROPEAN COMMİSSİON

Kristina Bolomo Borrero İspaniyada Kordovadan, İspaniya, Belçika və Harvard Biznes Məktəbində əldə edilmiş ixtisasa malik hüquqşünasdır.
Daha əvvəl kənd təsərrüfatı, balıqçılıq və ərzaq Nazirliyində İspaniya hökumətində işləyərkən, 2004-cü ildə Avropa Komissiyasına qoşulub, əvvəlcə kənd təsərrüfatı siyasəti ilə məşğul olub, sonra isə ticarət məsələlərinə keçərək Avropa Komissiyasına qoşulub.
O, 2014-cü ildən 2019-cu iləd ək AB-nin İqlim Dəyişikliyi və enerji ilə mübarizə üzrə komissarı Migel Arias Kanetenin kabinetin rəhbəri olub. Komissar Miguel Arias Kanetenin Aİ-nin KŞ-də əsas danışıqlar aparması olduğuna görə, o, Parisdə KSM21 sessiyasının bir hissəsində iştirak edib və deməli, Aİ komamohandasında mühüm rol oynayıb. Keçmiş komissarın səlahiyyət müddəti də Aİ-nin enerji qanunvericiliyinə "bütün avropalılar üçün təmiz enerji paketi"çərçivəsində uğurla yenidən baxılması ilə qeyd edilib.
O, 2019-cu ilin dekabr ayından 2020-ci ilin iyun ayınadək kənd təsərrüfatı üzrə baş direktoratın baş məsləhətçisi olmuş, 16 iyun 2020-ci ildən isə Avropa Energetika Komissiyasının baş direktorunun enerji siyasəti üzrə strategiyası və əlaqələndirmə üzrə direktoru olmuşdur. Bu rolda o, 14 iyul tarixində dərc edilmiş enerji səmərəliliyi və Bərpa Olunan Enerji Mənbələri üzrə Aİ-nin yeni təkliflərinin hazırlanmasında fəal iştirak edib. Direktor kimi onun vəzifələrinə Aİ-nin enerji məsələləri üzrə beynəlxalq əlaqələrinə nəzarət, üzv dövlətlərlə, eləcə də Aİ təsisatları ilə əlaqələndirmə, həmçinin Aİ-nin enerji siyasətinin kommunikasiya, hüquqi və iqtisadi aspektləri daxildir.



# KAMAL ABBASOV

## AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN MÜAVİNİ

1962-ci ildə Bakı şəhərində anadan olub.
1979-1985-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun xarici iqtisadi əlaqələr fakültəsində təhsil alıb.
1983-1988-ci illərdə SSRİ-nin Yəmən və İraqdakı Ticarət nümayəndəliklərində və Xarici Ticarət Nazirliyində müxtəlif vəzifələrdə çalışıb.
1988-1998-ci illərdə Azərbaycan SSRİ-nin Xarici İşlər Nazirliyində və Azərbaycan Respublikasının Nazirlər Kabinetində işləyib.
1998-2013-cü illərdə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar" və "Qaz İxrac" idarələrində rəhbər vəzifələrdə çalışıb.
2013-2020-ci illərdə "SOCAR"ın Qaz İxrac İdarəsində marketinq üzrə rəis müavini kimi fəaliyyət göstərib.
Azərbaycan Respublikası Prezidentinin 19 may 2020-ci il tarixli Sərəncamı ilə Energetika nazirinin müavini vəzifəsinə təyin edilib.
2012-ci ildə "Tərəqqi" medalı, 2017-ci ildə isə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib.



## ORXAN ZEYNALOV

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN MÜAVİNİ

Orxan Zeynalov beynəlxalq inkişaf və siyasət sahəsində 20 ildən artıq təcrübəyə malik peşəkar olmaqla, müxtəlif mövzularda regional və qlobal tərəfdaşlıqların qurulması sahəsində uğurlu fəaliyyəti ilə tanınır. Onun Xarici İşlər Nazirliyindəki 20 ildən artıq fəaliyyəti Nyu Dehli, Vyana, Tehran və Vaşinqton şəhərlərində diplomatik ezamiyyətləri, eləcə də enerji diplomatiyası, regional nəqliyyat siyasəti, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın əlaqələndirilməsi kimi müxtəlif portfellərə məsuliyyət daşıması ilə müşayiət olunmuşdur.

2013-2016-cı illərdə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Katibliyində Enerji, Faydalı Qazıntılar və Ətraf Mühit Direktorluğunun direktoru vəzifəsində çalışmış və həmin dövrdə təşkilat nümayəndə heyətlərinə Paris İqlim Dəyişikliyi Konfransı (COP21) və Nyu-Yorkda keçirilən BMT-nin Dayanıqlı İnkişaf Sammitində rəhbərlik etmişdir.

2016-2018-ci illər ərzində Avropa İttifaqı ilə yeni ikitərəfli saziş üzrə iqtisadi və sektoral əməkdaşlıq üzrə danışıqlar qrupunun rəhbəri olmaqla, baş danışıqçıların müavini kimi fəaliyyət göstərmişdir.

2020-ci ilin dekabr ayında Energetika Nazirliyinə Beynəlxalq Əməkdaşlıq üzrə direktor təyin olunmuş və Azərbaycan adından Avropa İttifaqı ilə strateji enerji tərəfdaşlığına dair yeni Anlaşma Memorandumunun (2022-ci ilin iyulunda imzalanıb) hazırlanması üzrə danışıqlara, habelə Türkmənistanla Xəzər dənizində yerləşən "Dostluq" yatağı üzrə birgə danışıqlar qrupuna rəhbərlik etmişdir.

2022-ci ilin sentyabrında Xarici İşlər Nazirliyinə İqtisadi Əməkdaşlıq İdarəsinin rəisi vəzifəsinə qayıdıb. Nazirlikdə fəaliyyəti dövründə enerji, iqlim, nəqliyyat və ticarət siyasəti sahələrinə məsul olmuş və Azərbaycanın xaricdəki səfirliklərinin iqtisadi bölmələrinin fəaliyyətini əlaqələndirmişdir. 2024-cü ilin yanvar-aprel aylarında Azərbaycanın COP29 Sədrliyi üzrə baş danışıqçıların müavini, eyni zamanda COP Sədrliyinin Mitiqasiya, Fəaliyyət Gündəliyi və Tərəfdaşlıqlar qruplarına rəhbərlik etmişdir

Orxan Zeynalov 2024-cü ilin aprel ayında energetika nazirinin müavini vəzifəsinə təyin olunmuşdur.

Cənab Zeynalov ingilis, rus, türk və azərbaycan dillərini sərbəst, alman və fars dillərini isə işlək səviyyədə bilir. Ailəlidir, 2 övladı var.



## İVA PETROVA

BOLQARISTAN RESPUBLİKASININ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ

2000–2009-cu illər dövründə İva Petrova Energetika Nazirliyində çalışmış, 2008-ci ildə isə Enerji Bazarları və Yenidənqurma Direktorluğunun direktoru vəzifəsinə təyin edilmişdir. O, ikitərəfli və çoxtərəfli proqramlar çərçivəsində maliyyələşdirilən enerji layihələrinin idarə olunması və monitorinqinə, habelə səmərəli enerji bazarlarının yaradılması sahəsində fəaliyyətlərə cavabdeh olmuşdur.

2009-cu ilin fevral ayından 2010-cu ilin iyun ayının sonunadək Bolqar Enerji Holdinqində Layihələr və İnvestisiyalar üzrə direktor vəzifəsində çalışmışdır. İva Petrova, həmçinin layihə təkliflərinin müstəqil qiymətləndiricisi kimi də fəaliyyət göstərmişdir.

O, eyni zamanda Sofiya Universitetinin "Müqəddəs Kliment Oxridski" İqtisadiyyat fakültəsində yarımştat assistent kimi çalışır. Petrova Sofiya Universitetində "İqtisadiyyat və Menecment" ixtisası üzrə magistr dərəcəsi almışdır. O, həmçinin Böyük Britaniyanın Birmingem Universitetinin məzunudur. Yaponiya, Belçika və Böyük Britaniyada bir sıra ixtisaslaşmış təlimlərdə iştirak etmişdir. Enerji sektorunda idarəetmə üzrə məsləhət xidmətləri göstərən 3B Advisory Ltd. şirkətinin tərəfdaşıdır.

İngilis dilində sərbəst danışır, italyan dilini yaxşı səviyyədə bilir.



*At INPEX, our energy is helping*
*shape a brighter future.*
*We are embracing today's opportunities*
*for ever cleaner and secure energy,*
*supporting a sustainable tomorrow.*
*Proudly contributing to positive economic*
*and social outcomes, we are powering*
*human progress and improving lives.*

***Energy for a brighter future***

**INPEX**



# ENGINEERED TO OUTRUN

At ABB, we are on a mission to help industries outrun – leaner and cleaner. With our leading technologies in electrification and automation, we help all industries run at high performance and become more productive, efficient and sustainable so they can outperform.

ABB are delighted to be sponsoring Baku Energy Forum

For further information please see:

https://new.abb.com/process-automation/energy-industries

ABB



# PAVEL-KASİAN NİTULESCU

DÖVLƏT KATİBİ
RUMINİYA ENERGETİKA NAZİRLİYİ

Cənab Pavel-Kasian Niţulescu peşəkar fəaliyyəti dövründə zəngin təcrübə qazanmışdır. O, 1997-ci ildən etibarən Compania Nationala a Huilei S.A. şirkətinin filialı olan Petrila Kömür Emalı Zavodunda istehsalat departamentinin mühəndisi vəzifəsindən öz peşəkar fəaliyyətini başlamışdır.
2003–2007-ci illərdə Electrocentrale Mintia və Electrocentrale Paroseni müəssisələrinə xidmət göstərən Valea Jiului Kömür Mədən İstismarı daxilində sənaye dəmir yolu nəqliyyatı sektorunun rəhbəri vəzifəsində çalışmışdır.
2007–2015-ci illərdə Valea Jiului Kömür Emalı müəssisəsində sahə rəisi vəzifəsində işləmişdir. Onun fəaliyyəti Lonea, Petrila, Livezeni, Vulcan, Aninoasa, Paroseni, Lupeni və Uricani mədənlərinin xidmətlə təmin edilməsini əhatə etmişdir. 2015–2017-ci illərdə Hunedoara Enerji Kompleksi tərkibində fəaliyyət göstərən Prestserv Petroşani Departamentinin rəhbəri vəzifəsində çalışaraq həmin mədənlər üçün kommersiya, texniki xidmət, xilasetmə və nəqliyyat sahələrinə cavabdeh olmuşdur.
2021–2022-ci illərdə CE Hunedoara tərkibində Prestserv Petroşani Filialının direktoru vəzifəsində çalışmışdır. 2022-ci ildən etibarən hal-hazıradək Rumıniya Energetika Nazirliyində Dövlət Katibi vəzifəsini icra edir. Onun birbaşa kurasiyasında Enerji Səmərəliliyi Direktorluğu, Elektrik Enerjisi və Təbii Qaz Bazarları üzrə Baş Direktorluq, Səmərəlilik və Risklər üzrə Direktorluq, Rumıniya Parlamenti ilə əlaqələr, işəgötürənlərlə və həmkarlar ittifaqları ilə əlaqələr sahələri yer alır. Eyni zamanda Sosial Dialoq Komissiyasının sədri, Milli İnvestisiya Planı Komissiyasının sədri, Milli Enerji Sisteminin Dekarbonizasiyası üzrə İşçi Qrupunun sədridir.
O, həmçinin, Milli Bərpa və Dayanıqlılıq Planının (NRRP) Korporativ İdarəetmə və İslahatlar üzrə 9-cu Komissiyası da daxil olmaqla bir sıra nazirliklərarası komissiyaların üzvüdür.
Cənab Niţulescu Petroşani Texniki Universitetinin magistr dərəcəsinə, Buxarest Titu Maiorescu Hüquq Universitetinin hüquq dərəcəsinə malikdir və 2023-cü il buraxılışı olmaqla Milli Müdafiə Kollecinin məzunudur.



# MÁRK ALFÖLDY-BORUSS

ENERJİ SİYASƏTİ ÜZRƏ DÖVLƏT KATİBİ
MACARISTAN ENERGETİKA NAZİRLİYİ

Cənab Márk Alföldy-Boruss, Ph.D., 2021-ci ildən etibarən Macarıstan Energetika Nazirliyində Enerji Siyasəti üzrə Dövlət Katibinin müavini vəzifəsini icra edir. O, Beynəlxalq Enerji Agentliyində İdarə Heyətinin üzvü olaraq Macarıstanı təmsil edir.
Cənab Alföldy-Boruss Szent István Universitetindən məzun olmuş, maliyyə və mühasibatlıq üzrə magistr dərəcəsi almış və daha sonra təhsilini davam etdirərək bərpa olunan enerji və onun rəqabət qabiliyyətinə təsiri mövzusunda iqtisadiyyat üzrə fəlsəfə doktoru (Ph.D.) elmi dərəcəsi qazanmışdır.
Cənab Alföldy-Boruss enerji bazarı və əlaqədar idarəetmə sahəsində 15 ildən artıq təcrübəyə malikdir və enerji sənayesi ilə dövlət idarəçiliyində müxtəlif vəzifələrdə çalışmışdır.
Karyerasına özəl sektorda bərpa olunan enerji layihələrinin hazırlanması ilə başlamışdır. Daha sonra dövlət idarəçiliyinə keçərək bərpa olunan enerji, enerji səmərəliliyi və emissiyaların ticarəti sahələrinə cavabdeh olan şöbələrə rəhbərlik etmişdir. Karyerasını MOL Qrupunda Avropa İttifaqı üzrə normativ məsələlər üzrə ekspert kimi davam etdirmişdir. Əvvəlki nazirliklərdə və özəl sektorda tutduğu vəzifələr, Energetika Nazirliyində daha strateji rəhbərlik mövqelərinə keçməsi üçün ona mühüm təcrübə qazandırmışdır – Elektrik Enerjisi Departamentinin rəhbərliyindən hazırda Enerji Siyasəti üzrə Dövlət Katibinin müavini vəzifəsinə qədər. Onun vəzifə səlahiyyətlərinə enerji siyasəti üzrə geniş strateji nəzarət daxildir və bu nəzarət elektrik enerjisi, təbii qaz, nüvə enerjisi, neft, elektromobillik və bərpa olunan enerji kimi sahələri əhatə edir.



## RÖVŞƏN NƏCƏF

PREZİDENT
SOCAR

Rövşən Nəcəf Çingiz oğlu 1982-ci il aprelin 9-da Bakı şəhərində anadan olub. 1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) Beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olub, 2001-ci ildə bakalavr, 2003-cü ildə isə magistratura proqramını fərqlənmə ilə bitirib. 2007-2008-ci illərdə ARDNŞ-nin təqaüd proqramı çərçivəsində ABŞ-ın Kolumbiya Universitetində təhsil alaraq İqtisadi Siyasətin İdarəedilməsi/Beynəlxalq Enerji Menecmenti və Siyasəti üzrə magistr proqramını uğurla bitirib. Əmək fəaliyyətinə 2001-ci ildə ADİU-nin Beynəlxalq iqtisadi münasibətlər və marketinq kafedrasında laborant vəzifəsində başlayıb. 2003-2007-ci illərdə Azərbaycan Respublikasının (AR) İqtisadi İnkişaf Nazirliyinin İnvestisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq Departamentinin İnvestisiya siyasəti şöbəsində məsləhətçi və baş məsləhətçi vəzifələrində çalışıb. 2008-2009-cu illərdə ARDNŞ-nin Sərmayələr İdarəsinin Sərmayələr üzrə kontraktlar şöbəsinin rəisi vəzifəsində işləyib. 2009-2010-cu illərdə AR İqtisadi İnkişaf Nazirliyində Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri və İqtisadi inkişaf nazirinin köməkçisi olub. 2010-2018-ci illərdə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktorunun müavini və icraçı direktoru vəzifələrində çalışıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə 2018-ci il 11 may tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin müdiri, 2019-cu il 28 avqust tarixində AR Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri, 2020-ci il 11 fevral tarixində AR İqtisadiyyat nazirinin müavini, 2021-ci il 24 dekabr tarixində AR İqtisadiyyat nazirinin birinci müavini, 2022-ci il 10 fevral tarixində SOCAR-ın birinci vitse-prezidenti və prezidenti vəzifəsinin müvəqqəti icraçısı, 2022-ci il 21 iyul tarixində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti təyin edilib. İqtisadiyyat üzrə fəlsəfə doktorudur. 3-cü dərəcəli dövlət müşaviridir. Evlidir, 2 övladı var.



## HÜSEYN AQİL NASİR

MALDİV RESPUBLİKASI TURİZM VƏ ƏTRAF MÜHİT NAZİRİNİN MÜAVİNİ

Cənab Hussain Ageel Naseer hazırda Maldiv Respublikasının Turizm və Ətraf Mühit Nazirliyində müavin vəzifəsində çalışır. O, ölkənin enerji sektorunun planlaşdırılması və inkişafında əsas rol oynayır, xüsusilə bərpa olunan enerji mənbələrinin milli şəbəkəyə inteqrasiyasına diqqət yetirir.

Cənab Ageel karyerasına STELCO-da (Dövlət Elektrik Şirkəti) mühəndis kimi başlamış, burada enerji sistemlərinin layihələndirilməsi, tətbiqi və modernləşdirilməsi ilə məşğul olmuşdur. O, Malayziyanın Asia Pacific University (APU) universitetində mühəndislik üzrə bakalavr dərəcəsinə sahibdir.



## ELNUR SOLTANOV

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN MÜAVİNİ / BAŞ İCRAÇI DİREKTOR COP29

Elnur Soltanov 2004-2009-cu illərdə Texas Texnologiya Universiteti, Slippery Rock Universiteti və Truman Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olub. O, 2000-2003-cü illərdə Türkiyədə Avrasiya Strateji Araşdırmalar Mərkəzində tədqiqatçı işləyib, daha sonra 2003-2009-cu illərdə ABŞ-nin Texas Texnologiya Universitetinin siyasi elmlər fakültəsində aspirantura təhsili alıb.
Həmçinin o, 2009-2018-ci illərdə ADA Universitetində baş müəllim, Xəzər Enerji və Ətraf Mühit Mərkəzində direktor, ictimai və beynəlxalq münasibətlər fakültəsində dekan vəzifəsində çalışıb. 2018-ci ildən Azərbaycan Respublikası energetika nazirinin müavinidir.



## CASSİM ƏLŞİRAVİ

BAŞ KATİB
BEYNƏLXALQ ENERJİ FORUMU (IEF)

Cassim Əl Şiravi 2025-ci il yanvarın 1-dən etibarən fəaliyyətə başlayan, mənzil-qərargahı Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərinin Diplomatik Kvartalında yerləşən və enerji nazirlərini bir araya gətirən ən böyük beynəlxalq təşkilat olan Beynəlxalq Enerji Forumunun (IEF) altıncı Baş katibidir.
Yaxın Şərqdən bu vəzifəyə təyin olunan ilk Baş katib olan cənab Əl Şiravi, dövlət və özəl sektorda 40 ildən artıq enerji sənayesi təcrübəsi və rəhbərlik təcrübəsinə malikdir.
Cənab Əl Şiravi Bəhreynin enerji sektorunun inkişafına müxtəlif vəzifələrdə, o cümlədən Neft və Qaz nazirinin müşaviri kimi vəzifəsində, Bəhreyn Neft Şirkəti (Bapco), Milli Neft və Qaz İdarəsi və Neft Nazirliyində bir sıra rəhbər vəzifələrdə çalışmaqla töhfə verib.
O, həmçinin Bəhreynin Elektrik və Su Nazirliyi nəzdində Milli Bərpa Olunan Enerji və Enerji Səmərəliliyi Planlarının icrasına nəzarət edən Davamlı Enerji Mərkəzinin yaradılmasında iştirak edib.
Cənab Əl Şiravi WPC (hazırkı WPC Energy), Beynəlxalq Qaz İttifaqı (IGU), Beynəlxalq Enerji Forumu (IEF) və OPEC kimi enerji təşkilatlarında Bəhreynin iştirakının əlaqələndirilməsində fəal iştirak edib.
O, Beynəlxalq Enerji Forumunda Bəhreynin İcraiyyə Şurasında 7 il və Beynəlxalq Dəstək Qrupunda 9 il nümayəndəsi kimi çalışaraq, bu gün rəhbərlik etdiyi təşkilat barədə dərin bilik və təcrübə qazanıb.
Cənab Əl Şiravinin Bəhreynin enerji və mühəndislik sektorlarının inkişafına ömür boyu verdiyi töhfələr 2019-cu ildə Onun Əlahəzrəti Kral Həmd bin İsa bin Salman Əl Xəlifə tərəfindən ona "Milli Fəaliyyət Ordeni" ilə təltif olunması ilə yüksək qiymətləndirilib.



# ATSUKO HİROŞE

## BAŞ KATİBİN SƏLAHİYYƏTLƏRİNİ MÜVƏQQƏTİ İCRA EDƏN / BEYNƏLXALQ ENERJİ XARTİYASI

Xanım Atsuko Hiroşe 2021-ci ilin sentyabrında Enerji Xartiyası Katibliyinin baş katibinin müavini vəzifəsinə təyin edilib. Xanım Hiroşe hökumətdə, özəl sektorda və beynəlxalq təşkilatlarda 30 ildən çox beynəlxalq təcrübəyə malikdir-xüsusən də inkişaf üzrə dörd beynəlxalq maliyyə qurumunda 20 illik təcrübəsi var. Ən son olaraq, xanım Hirose baş ofisi İtaliya, Romada yerləşən Birləşmiş Millətlər Təşkilatının Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondunun (IFAD) katibliyində katib və direktor olmuşdur. O, IFAD və üzv dövlətlər arasında əlaqələr, eləcə də IFAD-ın nəzarət orqanlarının idarəetmə məsələlərinin idarə edilməsi və fəaliyyəti üzrə məsuliyyət daşıyırdı. IFAD-da işə başlamazdan əvvəl xanım Hirose bir çox beynəlxalq maliyyə qurumlarının hüquq şöbəsində işləmişdir. O, Filippinin Manila şəhərində yerləşən Asiya İnkişaf Bankının (AİB) Baş Müşavirinin Ofisində (BMO) məsləhətçi olmuş və burada əvvəlcə özəl sektor əməliyyatları üzrə baş məsləhətçinin köməkçisi vəzifəsində işləmişdir. O, həmçinin Çinin Pekin şəhərində Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) BMO-da bir müddət baş hüquq məsləhətçisi kimi çalışıb. AİB-ə qoşulmazdan əvvəl xanım Hiroşe "Conyers Dill & Pearman" ofşor hüquq firmasının Honq-Konq ofisində işləyib, burada o, Asiyada birləşmə və satınalmalar, birbaşa investisiyalar, fond birjasında səhmlərin yerləşdirilməsi və investisiya fondları daxil olmaqla korporativ və maliyyə əməliyyatlarına cəlb olunmuşdur. Xanım Hiroşe Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) baş məsləhətçisi olub, o, BMO-da heyət rəhbəri kimi fəaliyyət göstərib. O, kredit və kapital sövdələşmələrinin strukturlaşdırılması, razılaşdırılması və ləğvində fəal iştirak etməklə çoxsaylı layihələrin aparıcı məsləhətçisi olub. Xanım Hiroşe "Skadden", "Arps", "Slate", "Meagher & Flom LLP" şirkətlərinin Nyu-York, London və Tokiodakı ofislərində baş hüquqşünas və "O'Melveny & Myers LLP" şirkətinin ABŞ, Nyu-York ofisində hüquqşünas kimi çalışıb. Karyerasının əvvəlində o, ABŞ-ın Nyu-York ştatında Yaponiya Xarici İşlər Nazirliyində vitse-konsul və Yaponiyanın Tokio şəhərində Yaponiya Xarici İşlər Nazirliyində dövlət qulluqçusu kimi çalışıb. Xanım Hiroşe ABŞ-ın Harvard Hüquq Məktəbində fərqlənmə ilə hüquq üzrə bakalavr dərəcəsini alıb. O, ABŞ-ın Corctaun Universitetində diplomatik xidmət üzrə magistr dərəcəsini; və Yaponiyanın Oçanomizu Universitetində ingilis dili və ədəbiyyatı üzrə bakalavr dərəcəsini alıb.  Xanım Hiroşe Nyu-York ştatında hüquqşünas, İngiltərə və Uelsdə vəkil kimi ixtisaslaşmışdır. O, eyni zamanda Sinqapur Arbitrlər İnstitutunun elmi işçisi və Londondakı Kral Arbitrlər İnstitutunun üzvüdür.



# QAURİ SİNQX

## BAŞ DİREKTOR MÜAVİNİ IRENA

Qauri Sinqx Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) Baş direktor müavinidir. Xanım Sinqx Hindistan və beynəlxalq miqyasda bərpa olunan enerji və dayanıqlı inkişaf sahəsində siyasət, təşviqat və layihələrin icrası üzrə 30 ildən artıq təcrübəyə malikdir.
IRENA-ya qoşulmazdan əvvəl xanım Sinqx Hindistanın mərkəzi hökumətində və əyalət səviyyəsində ali rəhbər vəzifələrdə çalışıb. Mərkəzi hökumətdə o, 2010-cu ildə ölkə üzrə günəş enerjisinin inkişafını təşviq etmək məqsədilə hazırlanmış erkən siyasət çərçivəsi olan Hindistanın Milli Günəş Enerjisi Missiyasının siyasətinin hazırlanmasına rəhbərlik edib. Madhya Pradeş əyalət hökumətində isə xanım Sinqx kənd inkişafına rəhbərlik edərək böyük təşəbbüslərin strateji planlaşdırılması və icrasına dair istiqamət verib. Onun fəaliyyəti kənd icmalarında yoxsulluğun azaldılması və dayanıqlı inkişaf məsələlərini əhatə edib.
Bundan əvvəl xanım Sinqx həmçinin IRENA-da Ölkə Dəstəyi və Tərəfdaşlıqlar (CSP) üzrə Direktor vəzifəsində çalışıb. Bu vəzifədə o, regional və ölkə səviyyəsində təşəbbüslərə, eləcə də regional enerji və iqtisadi təşkilatlarla tərəfdaşlıqların inkişaf etdirilməsinə rəhbərlik edib.

HUAWEI




# Accelerate Oil & Gas Intelligence

With top-notch digital infrastructure,
Huawei helps the oil & gas industry increase reserves and production, improve efficiency,
and achieve safe operations and green development.

HIS

**Building a Fully Connected, Intelligent World**

Intervention Reinvented



# Boost your production potential

Smarter well intervention for superior well performance and sustainability. Elevate your operations with SLB well intervention solutions—engineered for cost-effectiveness, precision, and impact. Our tailored approach achieves:

**Efficiency**
Lower production costs by up to 30% per barrel.

**Sustainability**
Reduce your carbon footprint by 33% per barrel.

**Innovation**
Enhance performance and extend the life cycle of your wells.

slb

Find out more at
slb.com/well-intervention

Copyright © 2024 SLB. All rights reserved. 24-RP-2330387



# RƏNA HÜMBƏTOVA

DİREKTOR MÜAVİNİ
BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ DÖVLƏT AGENTLİYİ

Rana Hümbətova Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) direktor müavini vəzifəsini tutur.
20 ildən artıq təcrübəyə malik baş enerji və iqlim eksperti olaraq, bərpa olunan enerji mənbələrinin, o cümlədən hidrogen və onun törəmələrinin davamlı istifadəsini təmin etmək üçün normativ-hüquqi bazanın hazırlanmasında fəal iştirak edir. İxtisaslaşdığı sahələr: milli iqlim və dayanıqlı enerji siyasətləri, emissiyaların ticarəti mexanizmləri, neft və qaz sənayesinin hasilat və nəqliyyat mərhələlərində metan emissiyalarının ölçülməsi, hesabatlılıq və yoxlanılması (MRV) sistemləri. Təhsilini tətbiqi və hesablama riyaziyyatı üzrə magistr dərəcəsi ilə başa vurub və statistik modelləşdirmə və böyük məlumatların analizi sahəsində ixtisaslaşıb. 2024-cü ildə BMT Avropa İqtisadi Komissiyasının Dayanıqlı Enerji Komitəsinin sədr müavini seçilib. 2013-cü ildən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) ekspertlər siyahısının üzvüdür və Paris Sazişi çərçivəsində ölkələrin təqdim etdiyi ikiillik şəffaflıq hesabatlarını enerji sektoru üzrə qiymətləndirən ekspert kimi fəaliyyət göstərir.



# ASXAT XASENOV

İDARƏ HEYƏTİNİN SƏDRİ
KAZMUNAYGAS

Təhsil: Kanyş Satpayev adına Qazax Milli Texniki Universitetini “Neft və qaz quyularının qazılması” ixtisası üzrə, həmçinin Beynəlxalq Biznes Universitetini “Menecment” ixtisası üzrə bitirmişdir.
İş təcrübəsi: Asxat Xasenov iş fəaliyyətinə 2005-ci ildə Qızılorda şəhərində yerləşən “Turgay Petroleum” ASC-nin neft və qaz hasilatı sexində 3-cü dərəcəli operator kimi başlamışdır.
2006-2010-cu illərdə “Neft və qaz sənayesinin Baş Dispetçer İdarəsi” ASC-də aparıcı mütəxəssis, baş mütəxəssis, neft-qaz yataqlarının işlənməsinin monitorinqi şöbəsinin müdiri, direktor müavini, departament direktoru və vitse-prezident vəzifələrində çalışmışdır.
2011-2019-cu illərdə Qazaxıstan Respublikası Neft və Qaz Nazirliyində fəaliyyətini davam etdirərək Dövlət Neft və Qaz Kompleksində İnspeksiya Komitəsinin Dövlət İnspeksiyası və İcazələrin verilməsi idarəsinə rəhbərlik etmiş, daha sonra Neft-kimya və Texniki tənzimləmə departamentinə rəhbərlik etmişdir.
2019-2022-ci illərdə “KLPE” MMC-də İdarə Heyətinin sədr müavini vəzifəsində çalışmışdır.
2022-2024-cü illərdə isə “KazMunayGas”a təyin edilməzdən əvvəl Qazaxıstan Respublikasının Energetika nazirinin müavini vəzifəsində çalışmışdır. Bu vəzifədə o, yeraltı sərvətlərdən istifadə və neft-qaz kimyasının inkişafı məsələlərinə nəzarət etmiş, həmçinin Karbonhidrogen yataqlarının kəşfiyyatı və işlənməsi üzrə Mərkəzi Komissiyaya rəhbərlik etmişdir.



## OLİVYE LE PEUŞ

BAŞ İCRAÇI DİREKTOR
SLB

Olivier Le Peuch 2019-cu ilin avqust ayından etibarən SLB-nin baş icraçı direktorudur. Bundan əvvəl o, şirkətin baş əməliyyat direktoru və SLB-dəki 35 illik karyerası ərzində bir çox digər qlobal idarəetmə vəzifələrində çalışmışdır. Bu vəzifələrə yataq və infrastruktur üzrə icraçı vitse-prezident; Cameron qrupunun prezidenti; tamamlamalar üzrə prezident; mühəndislik, istehsalat və istismar üzrə vitse-prezident; və Schlumberger İnformasiya Həlləri üzrə prezident daxildir.
Olivier SLB-də uzunmüddətli karyerasına 1987-ci ildə elektrik mühəndisi kimi başlamışdır. Karyerasının ilk illərində proqram təminatının xüsusi inteqrasiyası və inkişafı, həmçinin geofizika avadanlıqları üçün yüksək temperatur elektronikası üzrə işləmişdir. O, həm Avropada, həm də ABŞ-da texnologiya inkişafının idarə olunması da daxil olmaqla bir neçə rəhbər vəzifədə çalışmışdır.
Olivier Bordeaux Mühəndislik Universitetindən elektrik mühəndisliyi üzrə bakalavr dərəcəsi və Bordeaux Elm Universitetindən mikroelektronika üzrə tədqiqat magistr dərəcəsi almışdır.



## ALESSANDRO PULİTİ

BAŞ İCRAÇI DİREKTOR
SAİPEM

Alessandro Puliti 2022-ci ilin avqust ayından etibarən Saipem şirkətinin Baş İcraçı Direktoru olaraq fəaliyyət göstərir, 2022-ci ilin fevral ayından isə şirkətə Baş Menecer kimi qoşulmuşdur.
O, 30 ildən çox müddət ərzində qaz yataqlarının qeoloqu kimi karyerasına başlayıb, İtaliyada və xaricdə Agip və sonra Eni şirkətlərində müxtəlif texniki, əməliyyat və idarəçilik vəzifələrində inkişaf etmişdir.
Eni-də olarkən, 2003-cü ildə Misirdə IEOC-nin İnkişaf və Əməliyyatlar Meneceri kimi işləmiş və daha sonra Petrobelin Baş Meneceri və İEOC-nin Baş Meneceri vəzifələrini öz üzərinə götürmüşdür.
2009-cu ildə İtaliyaya qayıdaraq Şimali Avropa və Rusiya Regional İdarəetmənin vitse-prezidenti vəzifəsini öz üzərinə götürmüşdür.
2010-cu ildə Norveçə köçmüş, Eni Norge-nin İdarə Heyətinin İdarəetmə Meneceri və Şimali Avropa və Rusiya Regional İdarəetmənin vitse-prezidenti vəzifəsini birləşdirərək tutmuşdur.
2012-ci ildə şirkətin mərkəzi Əməliyyatlar Departamentinə geri qayıdaraq əvvəlcə Qaz Mühəndisliyi, İstehsal və Texniki Xidmət üzrə Baş Vitse Prezident, daha sonra isə Qazma və Tamamlama üzrə Baş Vitse Prezident və Əməliyyat üzrə müavin olmuşdur.
2015-ci ilin Oktyabrındadə Nəqliyyat və İnkişaf Layihələri üzrə İcraçı Vitse-Prezidenti təyin edilmişdir.
2018-ci ildə İnkişaf, Əməliyyatlar və Texnologiya üzrə Baş Direktor vəzifəsini öz üzərinə götürmüş və 2019-cu ildə isə Upstream üzrə Baş Direktor təyin edilmişdir.
Alessandro Puliti Florensiyada anadan olub. Milano Universitetində Geologiya fakultəsini fərqlənmə ilə başa vurmuşdur və "Scuola Mattei"də Enerji və Ətraf Mühitin İdarə edilməsi və İqtisadiyyat üzrə MEDEA Magistr dərəcəsini qazanmışdır.



## ELÇİN İBADOV

BAŞ İCRAÇI DİREKTOR
SOCAR TÜRKİYƏ

Elçin İbadov Çikaqodakı İllinoys Universitetindən məzun olduqdan sonra, əmək fəaliyyətinə 2002-ci ildə Dünya Ticarət Mərkəzində (Çikaqo) tədqiqatçı mütəxəssis kimi başlamışdır. İbadov, 2003-cü ildən etibarən PricewaterhouseCoopers (PwC) şirkətində bir sıra vəzifələrdə çalışmışdır.
2014-2019-cu illərdə Elçin İbadov, STAR Neft Emalı Zavodunda Maliyyə Direktoru və Maliyyə Şöbəsinin Rəhbəri (CFO) vəzifələrində fəaliyyət göstərmişdir. 2019-cu ilin noyabr ayında Petkimdə CFO vəzifəsinə təyin edilən İbadov, eyni zamanda tərkibinə STAR Neft Emalı Zavodu, Petkim, SOCAR Depolama və SOCAR Petrol Ticaret-in də daxil olduğu SOCAR Türkiyə Neft Emalı və Neft-Kimya Biznes Vahidinin CFO-su vəzifəsini icra etmişdir.
Elçin İbadov, Harvard Biznes Məktəbində peşəkar təlim və sertifikatlaşdırma proqramlarını bitirmişdir. O, iqtisadiyyat, mühasibat uçotu, maliyyə, Beynəlxalq Maliyyə Hesabatları Standartları (BMHS) və maliyyə auditi üzrə müxtəlif dərsliklərin hazırlanması və tərcüməsi ilə məşğul olmuşdur. İbadov, həmçinin ACCA, ACFE və IIA kimi beynəlxalq maliyyə və audit təşkilatlarının daimi üzvüdür. Elçin İbadov, YASED və DEK Türkiye-nin vitse-prezidenti, İKMİB-in İdarə Heyətinin üzvü kimi fəaliyyətini davam etdirir.
İbadov, 2023-cü ilin fevral ayından etibarən SOCAR Türkiyənin Baş icraçı direktoru vəzifəsini icra etməkdədir.



## GÁBOR ORBÁN

BAŞ DİREKTOR
MVM CEENERGY

Gábor Orbán 2024-cü ilin noyabr ayından etibarən MVM CEEnergy Zrt.-nin baş direktoru vəzifəsində çalışır. MVM CEEnergy Macarıstanın ən böyük təbii qaz ticarəti şirkətidir və ölkədə təbii qazın universal xidmət təminatçısı kimi yeganə subyekt olaraq yaşayış istehlakçıları üçün təhlükəsiz və etibarlı qaz təchizatını təmin etməkdə əsas rol oynayır.
Eyni zamanda, Gábor Orbán, MVM Qrupuna daxil olan və Macarıstanın ən əhəmiyyətli yerli sahibkarlıq qruplarından biri olan MVM Partner Zrt.-nin də baş direktorudur. Bu şirkət MVM Qrupunun yeganə elektrik enerjisi topdansatış müəssisəsidir. MVM Partner-in əsas missiyası MVM Qrupunun aktivlərinin dəyərini qrup səviyyəsində optimallaşdırma yolu ilə maksimuma çatdırmaqdır. İllər ərzində şirkət 20 Avropa ölkəsinin elektrik bazarlarında fəal ticarət aparan və 11 elektrik birjasında fəaliyyət göstərən regional əhəmiyyətli iştirakçıya çevrilmişdir. O, 2023-cü ilin may ayında MVM Partner-in baş direktoru təyin edilmişdir.
Cənab Orbán Janus Pannonius Universitetinin İqtisadiyyat fakültəsini iqtisadçı ixtisası üzrə bitirmişdir. Karyerasına bank sektorunda sərmayə idarəçiliyi sahəsində başlamış, əvvəlcə portfel meneceri, daha sonra isə investisiya direktoru kimi çalışmışdır. 15 ildən artıqdır ki, energetika sahəsində rəhbər vəzifələrdə çalışır. O, EMFESZ şirkətində ticarət departamentinin rəhbəri kimi fəaliyyət göstərmiş və Polşadakı əməliyyatlara nəzarət etmişdir.
2011-ci ildə o, MVM Partner şirkətində təbii qaz ticarətinə məsul direktor təyin olunmuşdur. 2013-cü ildən etibarən o, Magyar Földgázkereskedő Zrt.-də direktor və daha sonra baş direktor müavini vəzifələrini icra etmiş, burada kommersiya və ticarət fəaliyyətlərinə, eləcə də şirkətin beynəlxalq genişlənməsinə rəhbərlik etmişdir. Paralel olaraq, MVM və "Qazprom" şirkətlərinin birgə müəssisəsi olan PanRusGas-da baş direktor müavini kimi çalışmış və uzunmüddətli qaz təchizatı müqavilələrinin icrasına cavabdeh olmuşdur.
Evli və iki övladı var.



## ZOLTÁN RAHOTY

BAŞ DİREKTOR
MVM CEENERGY UPSTREAM

Zoltán Rahoty MVM Qrupunda Upstream fəaliyyətlərini qurduqdan və möhkəmləndirdikdən sonra hal-hazırda MVM CEEnergy-nin Upstream Biznes Bölməsinin baş direktoru vəzifəsini icra edir.
Cənab Rahoty Budapeşt Texnologiya və İqtisadiyyat Universitetində kimya mühəndisliyi üzrə bakalavr dərəcəsi almış, daha sonra maliyyə sahəsində təhsilini davam etdirmiş və MBA dərəcəsi ilə məzun olmuşdur.
O, beynəlxalq enerji bazarlarında 20 illik təcrübəyə malikdir və bu müddət ərzində enerji sənayesində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.
Karyerasına E.ON Qrupunda təbii qaz bazarlarında başlamış və uzunmüddətli enerji təchizatı müqavilələrinin hazırlanması, eləcə də regional qaz təchizatı modellərinin inkişafında aparıcı rol oynamışdır. Daha sonralar, Strukturlaşdırılmış Qaz Ticarəti və LNG (maye təbii qaz) üzrə direktor kimi fəaliyyət göstərmiş, regional bazarların inkişafına rəhbərlik etmiş və MVM Qrupu daxilində LNG biznes bölməsinin qurulması və idarə edilməsinə cavabdeh olmuşdur.
Strukturlaşdırılmış qaz və LNG ticarəti sahəsindəki fəaliyyətindən sonra o, MVM Qrupu daxilində Upstream biznes bölməsinin yaradılmasına rəhbərlik etmiş və beləliklə, təbii qaz dəyər zənciri boyunca tam inteqrasiya olunmuş bir strukturun formalaşdırılmasına nail olmuşdur.



## NURAN KƏRİMOV

İDARƏEDİCİ PARTNYOR
DELOİTTE AZƏRBAYCAN

Nuran Kərimov Deloitte Azərbaycan şirkətinin İdarəedici partnyorudur.
Nuran Deloitte Azərbaycan şirkətində əmək fəaliyyətini 2003-cü ildə başlamış və şirkətin vergi praktikasının əsasını qoymuşdur. Peşəkar karyerasının əsas hissəsini yerli və beynəlxalq vergiqoyma məsələlərinə həsr etmişdir. Onun həm beynəlxalq, həm də Azərbaycandakı şirkətlərə və fiziki şəxslərə müxtəlif vergi və əlaqəli biznes məsələləri ilə bağlı məsləhət xidmətlərinin göstərilməsi sahəsində çoxillik təcrübəsi vardır. Deloitte-dan əvvəl Nuran Azərbaycanda hüquq və vergi mütəxəssisi kimi bir neçə şirkətlərdə çalışmışdır.
Nuran 2008-ci ildə şirkətin Partnyoru, 2009-cu ildə şirkətin İdarəedici Partnyoru vəzifəsinə yüksəlmişdir.
Nuran Rusiya Federasiyasının Voronej Dövlət Universitetinin Hüquq üzrə Bakalavr dərəcəsini 1995-ci ildə almışdır. Daha sonra, Amerika Birləşmiş Ştatlarının Corciya Universitetinin hüquq fakültəsinin magistratura pilləsinə qəbul olunmuş və 2002-ci ildə məzun olmuşdur.
Nuran 2016-cı ildən 2022-ci ilə qədər Deloitte MDB şirkətinin Direktorlar Şurasının üzvü, və 2017-ci ildən 2022-ci ilə qədər Azərbaycanda Amerika Ticarət Palatasının Prezidenti vəzifəsini icra etmişdir.


ENGINEERING
FOR A SUSTAINABLE FUTURE
We are a global leader in the engineering and construction of major projects for the energy and infrastructure sectors, offshore and onshore.
We can continue bringing our solid experience to the Caspian Region, thanks to our 30 years' experience in Azerbaijan during which we participated to key projects in the country, always with a focus on the development of local workforce.
Driven by technological innovation, we support our clients on the energy transition pathway towards Net Zero, with increasingly digital means, technologies and processes operating with the highest standards of safety and environmental sustainability.
SAIPEM
SAIPEM.COM


TURKISH PETROLEUM
TURNS 70
and still just getting started...
There's a long road ahead,
and many treasures yet to be discovered!
REPUBLIC OF TURKEY
MINISTRY OF ENERGY AND
NATURAL RESOURCES
TURKISH
PETROLEUM



## ANTON KOSAÇ

İDARƏEDİCİ DİREKTOR VƏ TƏRƏFDAŞ
BOSTON CONSULTING GROUP (BCG)

Anton Kosaç Boston Consulting Group-un energetika sahəsində təcrübəli aparıcı üzvüdür. Anton 2011-ci ildə şirkətin komandasına qoşulduqdan sonra neft-qaz və energetika sahələrində müştərilərlə inkişaf, əməliyyat, təşkilati transformasiya, kapital xərclərin səmərəliliyinin artırılması və əsas investisiya layihələrinin icrası kimi mövzularda əməkdaşlıq etmişdir. Onun məşğul olduğu işlər kəşfiyyat və hasilat, emal, enerji istehsalı, elektrik paylayıcı şəbəkə və bərpa olunan enerji sahələrini əhatə etmişdir.
Anton Kosaç əsas şaquli inteqrasiyalı və yerli şirkətlər üçün çox sayda genişmiqyaslı transformasiya proqramlarının icrasına, o cümlədən təşkilati məsələlər, ilkin ictimai təklif (IPO)/özəlləşdirmə, birləşmədən sonrakı inteqrasiya prosesi (PMI), neft-qaz və enerji sənayelərində əməliyyat modellərinin yenidən baxılması ilə bağlı layihələrə rəhbərlik etmişdir. Anton Kosaç bu müştərilərlə qarşılıqlı fəaliyyət prosesində Şərqi və Qərbi Avropa, Skandinaviya və Yaxın Şərqdə çoxmillətli komandaları idarə etmişdir.
BCG-yə qoşulmazdan əvvəl o, Roland Berger Strategy Consultants və PwC şirkətlərinin əməkdaşı olmuşdur.



## STANİSLAV YANKELEVİÇ

İCRAÇI DİREKTOR VƏ TƏRƏFDAŞ
BOSTON CONSULTING GROUP (BCG)

Stanislav Yankelevich Boston Consulting Group-un (BCG) Bakı ofisində İcraçı Direktor və Partnyor vəzifəsində çalışır. O, 2016-cı ildə BCG-yə qoşulub və hazırda şirkətin Xəzər regionunda enerji sektoru üzrə iqlim və dayanıqlılıq fəaliyyətinə rəhbərlik edir.
İqlim və dayanıqlılıq sahəsindəki dərin ekspertizasından əlavə, Stanislav aparıcı enerji şirkətlərinə strategiyanın formalaşdırılması, əməliyyat səmərəliliyinin artırılması, genişmiqyaslı korporativ transformasiyalar, kapital layihələrinin idarəolunması və yeni biznes təşəbbüslərinin qurulması kimi mövzularda yüksək səviyyəli məsləhətçilik göstərmişdir.
Onun iqlim və dayanıqlılıq üzrə son fəaliyyəti müştərilərin yaşıl biznes-model innovasiyası, dekarbonizasiya strategiyalarının hazırlanması və əməliyyat təşəbbüslərinin icrası istiqamətində dəstəklənməsinə fokuslanır. Bu iş çərçivəsində Stanislav uzunmüddətli strateji baxışların formalaşdırılması, aktiv və portfel səviyyəsində dekarbonizasiya planlarının hazırlanması, innovasiyalar vasitəsilə artımın təmin edilməsi, əməliyyat modellərinin transformasiyası və külək, günəş, enerji anbarı, habelə hidrogen kimi yeni enerji mənbələrinin inteqrasiyasını həyata keçirir.
BCG-yə qoşulmazdan əvvəl Stanislav istehsal müəssisəsində Maliyyə Nəzarəti üzrə rəhbər kimi çalışmış və bundan əvvəl maliyyə məsləhətçiliyi sahəsində müxtəlif məsul vəzifələr icra etmişdir.



## LUKA ŞİPPATİ

İCRAÇI DİREKTOR
TAP

Luka 2017-ci ilin iyun ayında "TAP" şirkətinə İcraçı Direktor kimi qoşulub. Luka İtaliya və Avropada boru kəmərlərinin işlənməsi və idarə edilməsi, zavodların tikintisi, qazın ötürülməsi və paylanması şirkətlərinin idarə edilməsi və texniki xidməti sahəsində 25 ildən artıq təcrübəyə malikdir. Karyerası boyunca Luka "Italgas" şirkətinin Baş İcraçı Direktoru daxil olmaqla bir neçə icraçı rəhbər vəzifələrdə çalışmışdır. Onun ən son vəzifələri "Snam" şirkətinin Sənaye Aktivləri üzrə Baş Mütəxəssisi, həmçinin "Snam Rete Gas S.p.A."nın İdarəedici Direktoru olub. Luka Milan Politexnik Universitetində nüvə texnologiyası üzrə təhsil alıb.



## ƏLİ QURBANOV

BAŞ DİREKTOR
SOCAR-IN "AZNEFT" İSTEHSALAT BİRLİYİ

Qurbanov Əli Qurban oğlu 1967-ci il 27 aprel tarixində Siyəzən rayonunda anadan olub. 1984-1991-ci illər ərzində Azərbaycan Sənaye İnstitutunda (indiki ADNSU) təhsil alıb.
Əmək fəaliyyətinə 1991-ci ildə "28 May" Neft və Qazçıxarma İdarəsində neftqazçıxarma operatoru kimi başlayıb. 1993-1999-cu illərdə idarənin Neftin və qazın çıxarılması, hazırlanması, nəqli və məhlulu üzrə istehsalat şöbəsində mühəndis, 4 saylı Dərin Dəniz Özülünün rəis müavini və rəisi vəzifələrində çalışıb.
1999-2000-ci illərdə Azərbaycan Beynəlxalq Əməliyyat şirkətinin (AİOC), "Çıraq" quyuları üzrə əməliyyat qrupunda neft mühəndisi kimi fəaliyyətini davam etdirib. 2006-2008-ci illərdə bp-nin "Azəri", "Çıraq", "Günəşli" yataqlarının qazma və tamamlama işləri üzrə qrupunun "Qərbi Azəri" yatağı üzrə əsas əməliyyat qrupunun neft üzrə baş mühəndisi vəzifəsində çalışıb. 2008-2011-ci illərdə bp-nin Quyuların işlənməsi üzrə qrupunun rəhbəri olub.
2011-2012-ci illərdə SOCAR-ın Neftin-qazın hasilatı və nəqli üzrə vitse-prezidentin neft-qaz hasilatı üzrə müavini vəzifəsində çalışıb. 2012-2017 illərdə "SOCAR-Ümid" MMC-nin baş direktoru, 2017-2024-cü illərdə "Ümid Babək Operating Company" Əməliyyat şirkətinin direktoru kimi əmək fəaliyyətini davam etdirib.
2024-cü ildə SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş direktoru təyin edilib.
Evlidir, 3 övladı var.



## KAMRAN ZAHİD

BAŞ İCRAÇI DİREKTOR
CASPIAN GEOPHYSICAL

Kamran Zahid, SOCAR-ın törəmə müəssisəsi olan Caspian Geophysical şirkətinin baş icraçı direktoru vəzifəsini icra edir. Şirkət Azərbaycanın geoloji-kəşfiyyat fəaliyyətlərinin yenidən təşkili və inkişafı istiqamətində fəaliyyət göstərən məsul qurumdur.
Kamran Zahid strateji planlaşdırma, biznesin inkişafı və əsas geoloji-kəşfiyyat layihələrinin həm yerli, həm də beynəlxalq səviyyədə həyata keçirilməsinə rəhbərlik edir.
SOCAR-da fəaliyyətə başlamazdan əvvəl o, Deloitte-un Strateji Konsaltinq bölməsində və Shell Global Exploration şirkətinin Hyuston şəhərindəki ofislərində texniki və rəhbər vəzifələrdə çalışmışdır.
Kamran Zahid Rice Universitetindən MBA magistr dərəcəsinə və Hyuston Universitetindən Geologiya üzrə magistr elmi dərəcəsinə malikdir.



## EMMANUEL DE GUİLLEBON

ÖLKƏ ÜZRƏ SƏDR
TOTALENERGIES AZƏRBAYCAN

Emmanuel De Guillebon 1992-ci ildən bəri TotalEnergies şirkətində fəaliyyət göstərir. Onun maliyyə sahəsi üzrə təcrübəsi var. 2001-ci ilə qədər şirkətin maliyyə departamentində korporativ maliyyə və layihələrin maliyyələşdirilməsi sahəsində bir sıra vəzifələrdə çalışmışdır.
2001-ci ildə Yeni Müəssisələr Şöbəsinin Kəşfiyyat və Hasilat şöbəsinə keçdi. Daha sonra o, Venesuela və İndoneziyada biznes və aktivlərin idarəedilməsi üzrə rəhbər vəzifələrdə çalışıb.
2012-ci ildə TOTAL E&P şirkətinin İraqdakı İcraedici Direktoru vəzifəsinə təyin olunub.
2015-ci ildə öz kariyerasına Kəşfiyyat və Hasilat üzrə vitse prezidentin müavini və daha sonra Cənubi Amerikanın cənub qütbündə vitse prezident kimi davam etmişdir.
2017-ci ildə şirkətin Strategiya və İnnovasiya bölməsində vitse-prezident vəzifəsini tutmuşdur.
2023-cü ildə Azərbaycanda TotalEnergies şirkətinin Ölkə üzrə Sədri təyin olundu.



# SAMİR AXUNDOV

## İDARƏ HEYƏTİNİN SƏDRİ
## AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏMƏ AGENTLİYİ

Samir Əli Hüseyn oğlu Axundov 8 oktyabr 1971-ci ildə Bakı şəhərində anadan olub. 1988-1993-cü illərdə Azərbaycan Texniki Universitetinin Maşınqayırma fakültəsində mühəndislik ixtisası üzrə təhsil alıb.
2004-cü ildə Azərbaycan Energetika və Layihələndirmə İnstitutunda "Elektrik enerjisi sistemləri və elektrik şəbəkələri, enerjinin idarəolunması" mövzusunda dissertasiya müdafiə edərək texniki elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb. 1998-2003-cü illərdə "Siemens" Səhmdar Cəmiyyətinin Azərbaycan nümayəndəliyinin "Enerjinin istehsalı və paylanması" şöbəsinin rəhbəri kimi çalışıb. 2003-cü ildə "Siemens" Səhmdar Cəmiyyətinin Azərbaycan nümayəndəliyinin rəhbəri olub.
2015-ci ildə isə "Siemens" Səhmdar Cəmiyyətinin Azərbaycandakı filialının baş icraçı direktoru təyin olunub və 2018-ci ilə qədər bu vəzifədə çalışıb. İş fəaliyyəti ilə yanaşı, öncə Almaniya-Azərbaycan İqtisadi Yardım İttifaqının, daha sonra isə Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının İdarə Heyətinin sədri vəzifələrində çalışıb.
Azərbaycan Respublikası Energetika nazirinin 30 yanvar 2018-ci il tarixli Əmri ilə Samir Axundov Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri təyin edilib.
Azərbaycan, ingilis və rus dillərində sərbəst danışır. Ailəlidir, 4 övladı var.



# ABİD MALİK

## MƏRKƏZİ ASİYA ÜZRƏ PREZİDENT
## ACWA POWER

Abid Malik ACWA Power şirkətində Mərkəzi Asiya üzrə Prezident vəzifəsini tutur. Peşəkar olaraq Mexaniki mühəndis ixtisasına malik olan Abid Malik enerji sektorunda 25 ildən artıq zəngin və dəyərli təcrübəyə sahibdir.
Abid Malik artıq 15 ildən çoxdur ki, ACWA Power şirkətində çalışır. O, 2009-cu ildə ACWA Power şirkətinə qoşulmazdan əvvəl AES və Engro Power (keçmiş Exxon) şirkətlərində funksional və yüksək rəhbər vəzifələrdə çalışmış, enerji layihələrinin biznesin inkişafı, layihələndirilməsi, tikintisi və istismarı sahələrində dərin təcrübə qazanmışdır.
Dünyanın müxtəlif regionlarında iri enerji layihələrinin həyata keçirilməsində yaxından iştirak edən Abid Malik enerji sektorunun iki əsas biznes modeli — uzunmüddətli müqavilələli layihələrin və sərbəst bazar yatırımlarının inkişafı, layihələndirilməsi, istismarı və kommersiya mexanizmləri üzrə zəngin bilik və təcrübə əldə etmişdir.
Abid Malik, həmçinin ACWA Power şirkətinə məxsus və bu şirkət tərəfindən idarə olunan bir sıra enerji və kommunal xidmət şirkətlərinin Direktorlar Şurasının üzvüdür.



## GÜLYA AĞALARZADƏ

BAŞ DİREKTOR
ABB AZƏRBAYCAN

Gülya Ağalarzadə ABB Azərbaycan şirkətinin Baş direktoru vəzifəsini icra edir. On ildən artıq sənaye avtomatlaşdırılması və layihə idarəçiliyi sahəsində təcrübəyə malikdir və Xəzər regionunda enerji sektorunda layihələrə rəhbərlik etmişdir.
O, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Proseslərin Avtomatlaşdırılması ixtisası üzrə həm bakalavr, həm də magistr dərəcəsi almışdır. Gülya beynəlxalq səviyyədə təhsilini davam etdirərək Corc Vaşinqton Universitetində Layihə İdarəçiliyi və Kanzas Universitetində İrəliləmiş İdarəetmə Texnologiyaları üzrə ixtisas proqramlarını uğurla başa vurmuşdur. Eyni zamanda, o, PMP (Layihə İdarəçiliyi üzrə Peşəkar) sertifikatına malikdir.
Mövcud rəhbər vəzifəsinə başlamazdan əvvəl, Gülya ABB şirkətində Layihə Meneceri kimi çalışmış və Xəzər regionu üzrə müxtəlif layihələr portfelinə cavabdeh olmuşdur.
Hazırda Gülya, Azərbaycanın sənaye inkişafını və enerji keçidini dəstəkləyən innovativ və dayanıqlı avtomatlaşdırma və elektrikləşdirmə həllərinin təqdim olunmasına hədəflənmiş komandaya rəhbərlik edir. O, yerli potensialın inkişafına önəm verir və ABB-nin qlobal təcrübəsini müştərilər və cəmiyyət üçün uzunmüddətli dəyər yaratmaq məqsədilə tətbiq edir.



## KOLİN ALLAN

AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ REGİONUNDA MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ VİTSE-PREZİDENT / BP

Kolin 1999-cu ildən bp-də işləyir və bp-nin Şimal dənizi, Azərbaycan, Əlcəzair, Anqola və Trinidaddakı bizneslərində müxtəlif kommersiya və biznes inkişafı vəzifələrində çalışıb.
Kolin çox sayda regionda müxtəlif maliyyə fəaliyyətlərində iştirak etməklə maliyyə sahəsində dərin təcrübəyə malikdir.
Kolin Azərbaycanda 2003-cü ildə yekun investisiya qərarı verilmiş Şahdəniz 1 layihəsinin ilkin danışıqlarında da yaxından iştirak edib. Kolinin Oksford universitetindən müasir tarix ixtisası üzrə dərəcəsi var.



# STÜART ŞOU

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ REGİONUNDA HASİLAT ÜZRƏ VİTSE-PREZİDENT / BP

Stüart bp-də fəaliyyətinə 1998-ci ildə başlayıb və o vaxtdan bəri Şimal dənizi, Alyaska və Misirdə əməliyyatlar və yataqlar üzrə hasilatın idarə olunması ilə bağlı müxtəlif vəzifələrdə çalışıb. Əməliyyatlar bölməsində dəniz qurğusu meneceri və əməliyyatlar üzrə menecer rəhbər vəzifələrdən əlavə, Stüart strateji transformasiya proqramlarına da rəhbərlik edib və Şimal dənizində və Misirdə bp-nin bir neçə iri layihələrinin təhlükəsiz və səmərəli şəkildə işə salınmasına nəzarət edib.
Stüartın Mançester Universitetindən magistr dərəcəsi var.



# DƏN SPARKS

## AZƏRBAYCAN, GÜRCÜSTAN, TÜRKİYƏ REGİONUNDA GEOLOGİYA VƏ İŞLƏNMƏ ÜZRƏ VİTSE-PREZİDENT / BP

Dənin 25 illik sənaye təcrübəsi var, əsasən də yeraltı resurslar xüsusilə də çətin çıxarıla bilən ehtiyatların işlənməsi sahəsində. Dən Kanada, Braziliya, ABŞ, Böyük Britaniya, Norveç, İndoneziya, Avstraliya və Hindistan kimi ölkələrdə dənizdə və digər yataqlarda hasilat əməliyyatları, quyular və geologiya sahələri üzrə müxtəlif vəzifələrdə çalışıb . Bu təyinatdan əvvəl Dən Asiya-Sakit okean və Hindistan regionlarında geologiya və işlənmə üzrə vitse-prezident olub.
Dənin neft-qaz mühəndisi ixtisası üzrə dərəcəsi var və o, Kanadanın Alberta şəhərində lisenziyalaşmış peşəkar mühəndisdir.

# Your Operations **Smarter. Safer. Synchronized.**

Designed by Engineers,
Trusted by Industry Leaders




| | |
|---|---|
| **20%** inspection cost reduction | **30%** turnaround time reduction |
| **50%** fewer manual workflows | **UP TO €100M** saved per leak |

## Our Solutions

Unlock Operational Excellence with IMS — scalable Integrity Management System that powers leading energy enterprises and breaks silos between **Integrity**, **Reliability** and **Functional Safety** disciplines.

Egyptian LNG · NCOC · Tüpras · GC · equinor · KNPC

## How IMS Solves Industry Challenges

**Break Down Silos**
One platform for all your integrity data.

**Stay Compliant**
Track compliance automatically, stay aligned with global standards.

**Work Smarter**
Simplify workflows and help teams get more done with less effort.

**Simplify & Scale**
Replace disconnected tools with one system that grows with you.

**Prevent Failures**
Catch risks early, avoid shutdowns.

**Connect with us.**

Scan the QR code
to explore our products.

cenosco

www.cenosco.com

AZEL
SYSTEMS

HEXAGON

## Official Distributor in Azerbaijan



SOCAR Downstream: Hexagon "Project Award" for the best implementation in the region



SOCAR Carbamide: HxGN SDx project

---

## AZEL Systems - Your Reliable Partner

---

HEXAGON
Tekla Structures
A Trimble Solution
AUTODESK
bimser
dji
aspentech
SAMSUNG

---

Web: www.azel.net; www.azelsystems.az E-mail: business@azel.net



# ARZU CAVADOVA

VİTSE-PREZİDENT
SOCAR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 iyul 2023-cü il tarixli Fərmanı ilə Arzu Cavadova Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Təbii ehtiyatların kəşfiyyatı seqmenti üzrə vitse-prezidenti vəzifəsinə təyin edilib.
O, 1984-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olaraq, 1989-cu ildə fərqlənmə ilə bitirmişdir. Geologiya/mineralogiya üzrə fəlsəfə doktoru-elmlər namizədi elmi dərəcəsini almışdır. 50-dən artıq elmi məqalə və kristalların hidrotermal şəraitdə yetişdirilməsi mövzusuna dair Moskva Dövlət Kristalloqrafiya İnstitutundan alınmış 2 elmi ixtiranın müəllifidir.
Əmək fəaliyyətinə 1985-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunda başlamışdır. 1985-1986-cı illərdə Azərbaycan Neft və Kimya İnstitutunun "Ümumi, tarixi geologiya və hidrogeologiya" kafedrasında, 1987-1988-ci illərdə isə "Geofiziki kəşfiyyat üsulları" kafedrasında 0.5 ştat laborant, 1989-1991-ci illərdə "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasında mühəndis vəzifəsində çalışmışdır. 1990-cı ildə "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrası nəzdində aspiranturaya daxil olmuş, kafedrada təhsil zamanı 0.5 ştat, 1994-cü ildə bitirdikdən sonra 1996-cı ilə qədər isə tam ştat müəllim-assistent vəzifəsində çalışmışdır. 1996-1997-ci illərdə ARDNŞ-nin "Azərineftinformatika" hesablama mərkəzində mühəndis, 1997-ci ildə Dənizdə neft və qazçıxarma İstehsalat Birliyinin mərkəzi laboratoriyasında geokimyaçı-qrup rəhbəri, Dənizdə neft və qaz yataqlarının işlənməsinə nəzarət ekspedisiyasının Neft geokimya qrupunun rəhbəri kimi çalışmışdır.
1997-1999-cu illərdə ABŞ "Frontera Resorses" neft şirkətində baş geoloq, 1999-2003-cü illərdə "Salyan Oil" Ltd. şirkətində aparıcı və işlənmə üzrə geoloq, 2003-2007-ci illərdə isə "Delta Hess ACG" Ltd. şirkətində geoloji işlər üzrə baş mütəxəssis vəzifələrində çalışmışdır.
2007-2022-ci illərdə "BP Exploration" (Caspian Sea Ltd.) şirkətinin kəşfiyyat şöbəsində baş geoloq, qrup rəhbəri, geoloji kəşfiyyat üzrə menecer, karbohidrogen sistemləri üzrə analitik vəzifələrində çalışmışdır.
2022-ci ildə SOCAR-ın Baş geoloqu vəzifəsinə təyin edilmişdir.



# ƏFQAN İSAYEV

VİTSE-PREZİDENT
SOCAR

Əfqan İsayev 2023-cü ilin iyul ayından etibarən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti vəzifəsini icra edir. O, şirkətin enerji keçidi, ətraf mühit üzrə təşəbbüsləri və dekarbonizasiya sahəsində həyata keçirilən fəaliyyətlərə rəhbərlik edir.
Əfqan İsayev hazırkı vəzifəsinə təyin olunmazdan əvvəl, 2014-cü ilin aprel ayından 2024-cü ilin mart ayınadək "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru olmuşdur. Eyni zamanda, 2013–2022-ci illər ərzində SOCAR prezidentinin müşaviri və "AzRigs" MMC-nin Direktorlar Şurasının üzvü qismində fəaliyyət göstərmişdir. 2012–2013-cü illərdə isə "SOCAR Georgia Investment" MMC-yə rəhbərlik etmişdir.
Karyerasının əvvəlki mərhələlərində Əfqan İsayev müxtəlif strateji və rəhbər mövqelərdə çalışmışdır. 2009–2012-ci illərdə Azərbaycan Dövlət İnvestisiya Şirkətinin (AIC) icraçı direktoru, 2004–2009-cu illərdə isə "Bank of Baku" ASC-nin İdarə Heyəti sədrinin müavini olmuşdur. Peşəkar fəaliyyətinə ABŞ-ın Nyu-York şəhərində yerləşən "American Express" şirkətində başlamış və 1998–2004-cü illər ərzində həmin şirkətdə müxtəlif vəzifələrdə çalışmışdır.
Əfqan İsayev 1996-cı ildə "Rutgers" Universitetini fərqlənmə ilə bitirərək, Maliyyə (BSc) və İqtisadiyyat (BA) ixtisaslarına yiyələnmiş, həmçinin Avropa Araşdırmaları sahəsində əlavə ixtisas dərəcəsini əldə etmişdir.
O, təhsilini "Rutgers" Universitetinin İdarəetmə üzrə magistratura pilləsində davam etdirmiş və 1998-ci ildə Maliyyə və İdarəetmə İnformasiya Sistemləri ixtisasını fərqlənmə diplomu ilə bitirərək, MBA dərəcəsini almışdır.



# BABƏK HÜSEYNOV

VİTSE-PREZİDENT
SOCAR

Babək Hüseynov SOCAR-ın İşlənmə və Hasilat Əməliyyatları üzrə vitse-prezidentidir O, SOCAR Upstream seqmentinin Xəzər hövzəsində və onun hüdudlarından kənarda seçilən Operatora çevrilməsi və tranformasinın təşkilinə rəhbərlik edir.
Babək Hüseynov Kolumbiya Universitetində Sənaye mühəndisliyi ixtisası üzrə təhsil alıb.
O, Qərbi Afrika və ABŞ-da quru və dəniz yataqlarında 18 ildən artıq peşəkar neft və qaz təcrübəsinə malikdir. Babək Hüseynov SOCAR-a gəlməzdən əvvəl "Hess Corporation" " şirkətində rəhbər vəzifələrdə çalışıb. Babək Hüseynov "Bronze Lean Leader" sertifikatına malikdir , proseslərin təkmilləşdirməsi və optimallaşdırması üzrə ixtisaslaşıb.



# ELŞAD NƏSİROV

VİTSE-PREZİDENT
SOCAR

Nəsirov Elşad Mustafa oğlu 1960-cı ildə Bakı şəhərində anadan olub. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunu bitirib.
1981-1982-ci illərdə SSRİ-nin Əfqanıstandakı səfirliyində, 1982-1985-ci illərdə SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda, 1985-1989-cu illərdə SSRİ Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. 1989-1992-ci illər ərzində SSRİ-nin Hindistandakı səfirliyində işləyib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1992-1995-ci illər ərzində Azərbaycan Respublikasının BMT yanındakı Daimi Nümayəndəliyində çalışıb, 1995-1997-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində idarə rəisinin müavini olub. 1997-2003-cü illərdə ARDNŞ-nin Xarici iqtisadi əməliyyatlar İdarəsinin, 2003-2005-ci illərdə isə Marketinq və iqtisadi əməliyyatlar İdarəsinin rəisi vəzifələrində işləyib.
Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2005-ci il tarixli Sərəncamı ilə şirkətin vitse-prezidenti vəzifəsinə təyin olunub. 2004-cü ildən Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir. 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilib. Yeni Azərbaycan Partiyasının üzvüdür.



## YUSIF QARAYEV

### VİTSE-PREZİDENTİN BİRİNCİ MÜAVİNİ / AZƏRENERJİ

15 avqust 1979-cu ildə anadan olmuşam.
1996-cı ildə orta məktəbi bitirmişəm.
1996 - 2000-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Energetika fakultəsində bakalavr pilləsi üzrə, 2000-2002-ci ildə mağistr pilləsi üzrə təhsil almışam.
2003-2005-ci illərdə hərbi xidmətdə olmuşam.
2003-cü ildən "Azərenerji" ASC-də işləyirəm.
Ailəliyəm, dörd övladım var.



## NİGAR ARPADARAİ

### BMT-NİN İQLİM ÜZRƏ YÜKSƏK SƏVİYYƏLİ ÇEMPİONU / COP29

Nigar Arpadarai Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, beynəlxalq təşkilatlarda, idman və telekommunikasiya sahəsində 15 illik iş təcrübəsindən sonra parlamentə seçilib.
O, Milli Məclisin deputatı seçilənə qədər 2016-cı ildən "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin marketinq və kommunikasiya şöbəsinin müdiri və Formula-1 Azərbaycan Qran-Prisinin rəsmi təmsilçisi olub. O, Bakı Dövlət Universitetində Hüquq və Beynəlxalq münasibətlər üzrə bakalavr və magistr dərəcələri alıb.



# TOMAS HÖRD

## ICA EVENTS GROUP ŞURASININ MÜŞAVİRİ ICA EVENTS GROUP

Tomas Robert Benedikt Hörd, CB, OBE — daxili təhlükəsizlik, diplomatiya və süni intellekt sahələrində mütəxəssis olan Britaniya dövlət xadimidir. 2021-ci ildən etibarən hökumətlərə və korporasiyalara süni intellekt strategiyaları üzrə məsləhət verən Zeki Data şirkətinə rəhbərlik edir — bu şirkəti özü təsis etmişdir.

2016–2021-ci illərdə Hörd Birləşmiş Krallığın daxili təhlükəsizlik üzrə baş müşaviri olmuş, 2020-ci ildə isə COVID-19 pandemiyası ilə mübarizədə mühüm rol oynamış Birgə BioTəhlükəsizlik Mərkəzini quraraq ona rəhbərlik etmişdir.

Əvvəllər Hörd Böyük Britaniyanın Xarici İşlər Nazirliyi və Nazirlər Kabinetində rəhbər vəzifələrdə çalışmış, diplomat kimi İordaniya, Polşa, Qüds və Nyu-Yorkda BMT-də fəaliyyət göstərmişdir. Dövlət qulluğuna başlamazdan əvvəl isə Credit Suisse First Boston investisiya bankında işləmişdir.

O, Bath Ordeni (CB) və Britaniya İmperiyası Ordeni (OBE) ilə təltif olunmuşdur.



# JAN-LYUK QİZYU

## AVROPANIN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ / TOTALENERGIES

Jan-Lyuk Qizyu Nansy Milli Geologiya Ali Məktəbinin (1985) və Stanford Universitetinin (Magistr, 1988) məzunudur.

O, hal-hazırda TotalEnergies şirkətində Avropada Kəşfiyyat və Hasilat məsələləri üzrə Baş Vitse-Prezident vəzifəsində çalışır.

O, 1988-ci ildə geofizika üzrə Yataqların Kəşfiyyatı və İşlənməsi layihəsinin rəhbəri kimi TotalEnergies şirkətinə işə qəbul olub. 1993-cü ildə Total Austral (Argentina) şirkətinin Baş Geofiziki kimi Buenos-Ayresə göndərilmişdir. Amerika ölkələri üzrə Vitse-Prezident vəzifəsini tutmamışdan əvvəl cənab Guiziou Cənub Konusu regionunda kəşfiyyat və hasilat əməliyyatlarının əlaqələndiricisi kimi 1996-cı ildən 1999-cu ilə qədər üç il Parisdə TotalEnergies şirkətinin Korporativ Maliyyə departamentində işləmişdir. 2002-2006-cı illərdə o, Kalqaridə TotalEnergies E&P Canada şirkətinin prezidenti vəzifəsində çalışmışdır. 2006-cı ildən 2008-ci ilə kimi o, TotalEnergies şirkətinin Parisdə Korporativ Maliyyə departamentində Maliyyə Əməliyyatları üzrə Vitse-Prezidenti olmuşdur. Daha sonra o, 2013-cü ilə qədər Əbu-Dabidə TotalEnergies United Arab Emirates şirkətinin prezidenti olmuş və 2017-ci ilə qədər Total-ın Korporativ Maliyyə departamentində Birləşmə və Alınma Əməliyyatları və strukturlaşdırılmış maliyyə məsələləri üzrə rəhbər vəzifələrdə çalışmışdır. 2017-ci ildən 2022-ci ilədək TotalEnergies E&P UK şirkətinin İdarəedici Direktoru və Birləşmiş Krallıqda Ölkə üzrə Sədr olmuşdur.



## QƏRİ COUNZ

### AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ ÜZRƏ REGİONAL PREZİDENT / BP

Qəri təxminən 40 illik iş təcrübəsi olan sübut edilmiş biznes lideridir. Hazırda o, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyədə biznesinin regional prezidentidir.

O, karyerasına 1981-ci ildə BP-də başlamış və qazma, istismar və layihələr sahəsində bir çox rəhbər vəzifələrdə çalışmışdır. Bu, Rumaila / əməliyyatlar üzrə vitse-prezident kimi İraqdakı bp - nin əməliyyatlarına rəhbərlik etməyi, Layihənin / İcra bölməsinin rəhbəri kimi Rusiyada əsas lider kimi işləməyi-Verxneçon əməliyyatlarına rəhbərlik etməyi, həmçinin, BP-nin Şimal dənizində aktivlərinə əsaslanan bir neçə rəhbər vəzifəni tutmağı nəzərdə tuturdu.

Qəri əhəmiyyətli iş təcrübəsi və texnologiyaların tətbiqi, eləcə də Milli Neft şirkətləri ilə güclü tərəfdaşlıq əlaqələri qurmaq təcrübəsinə malikdir.

Qəri Birminhem Universitetində Kimya mühəndisliyi dərəcəsi almışdır.



## SELİM GÜVEN

### AZƏRBAYCAN VƏ TÜRKİYƏ ÜZRƏ BAŞ ÖLKƏ MENECERİ / ACWA POWER

Selim, 1995-ci ildə İstanbul Texniki Universitetindən Mexanika mühəndisliyi üzrə bakalavr dərəcəsi və 1997-ci ildə Hofstra Universitetindən, Nyu Yorkda Maliyyə üzrə MBA dərəcəsi alıb. Selim karyerasına ABŞ-da enerji sahəsində başlayıb və Türkiyəyə qayıtmazdan əvvəl müxtəlif idarəetmə vəzifələrində çalışıb.

Selim, AkEnerji A.Ş.-də Kommersiya üzrə Baş Direktor vəzifəsində çalışmış, daha sonra ACWA Power-ın Türkiyədəki bütün elektrik və qaz bazarlarının əməliyyatlarını qurmaq üçün Kommersiya Direktoru vəzifəsinə təyin edilib.

Hazırda Selim, ACWA Power-ın Azərbaycan və Türkiyə əməliyyatlarının Baş İcraçı Direktoru və ACWA Power şirkətlərində müxtəlif idarə heyətində üzv vəzifələrini yerinə yetirir. Selimin xüsusi mütəxəssislik sahələri - strateji inkişaf, risk idarəetməsi, təşkilati transformasiya və idarəetmədir. Selim həmçinin Beynəlxalq İnvestorlar Assosiasiyasının (YASED) idarə heyətinin üzvü və vitse-prezidentidir, həmçinin Türkiyədə Enerji İstehsalçıları Assosiasiyası (EÜD) və Elektrik Ticarəti Assosiasiyasının (ETD) idarə heyətində də üzv olaraq fəaliyyət göstərir.



# ZSOMBOR MARTON

## MOL GROUP
## İCRAÇI VİTSE-PREZİDENT

MOL Şirkətlər Qrupunda Tutduğu vəzifələr:
Kəşfiyyat və Hasilat üzrə İcraçı Vitse-Prezident
MOL şirkətlər Qrupunun İdarəetmə Komitəsinin üzvü
INA şikətində İdarə Heyətinin üzvü
Zsombor Marton Miskolc Universitetində iqtisadiyyat üzrə magistr dərəcəsi alıb, daha sonra neft mühəndisliyi üzrə təhsilini davam edib. 2007-ci ildə MOL şirkətinə qoşulduqdan sonra o, neft sənayesinin bir çox sahələrində dəyərli təcrübə qazanıb və bir neçə böyük investisiyalarda iştirak edib. Zsombor Marton iki il İraq Kürdüstanında şirkətin baş maliyyə direktoru və idarəedici direktor müavini vəzifələrində çalışıb. 2015-ci ildə Macarıstanda MOL şirkətinin Baş Maliyyə Direktoru vəzifəsinə təyin edilib. O, 2017-ci ilin oktyabr ayından 2021-ci ilin aprel ayına qədər MOL şirkətinin kəşfiyyat və hasilat bölməsinə rəhbərlik edib. Daha sonra, 2021-ci ilin aprel ayınan 2022-ci ilin sentyabr ayına qədər o, MOL-un Emal-Kimya (Downstream) bölməsinin vitse-prezidenti və MOL NeftKimya Ltd şirkətinin baş direktoru olub. 1 oktyabr 2022-ci ildən MOL şirkətlər Qrupunun Emal-Kimya (“Downstream Chemicals”) bölməsinə birinci vitse-prezident vəzifəsinə təyin olunub. 16 yanvar 2023-cü ildə İNA şirkətinin idarə heyətinin üzvü seçilib. 2023-cü il fevralın 1-dən Zsombor Marton MOL şirkətlər Qrupunun kəşfiyyat və hasilat şöbəsinə İcraçı vitse-prezident kimi rəhbərlik edir və MOL Qrupun idarəetmə komitəsinin üzvüdür.



# ELNUR ƏLİYEV

## İDARƏ HEYƏTİNİN SƏDRİNİN MÜŞAVİRİ / AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ

Cənab Elnur Əliyev bakalavr və magistr dərəcələrini Azərbaycan Dövlət İqtisad Universitetində maliyyə ixtisası üzrə almışdır. O, Böyük Britaniyanın Mançester Universitetində maliyyə ixtisası üzrə MBA dərəcəsinə yiyələnmişdir. Cənab Əliyev peşəkar fəaliyyətinə 2000-ci ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində başlamış və burada çoxtərəfli iqtisadi əməkdaşlıq sahəsində çalışmışdır. 2004-2008-ci illərdə Azərbaycanın Avropa Birliyi yanında Nümayəndəliyində iqtisadi portfeli əlaqələndirmişdir. 2008-ci ildə Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən İslam İnkişaf Bankı (İİB) Qrupuna qoşulmuş, burada müxtəlif vəzifələrdə çalışmış və nəhayət, İİB Qrupuna daxil olan Beynəlxalq İslam Ticarət Maliyyələşdirmə Korporasiyasında MDB ölkələri üzrə regional menecer vəzifəsini icra etmişdir. 2017-2020-ci illərdə BƏƏ-nin Dubay şəhərində yerləşən Azərbaycan Respublikasının Körfəz ölkələri üzrə ticarət nümayəndəsi olmuşdur. 2020-2021-ci illərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzində baş icraçı direktor vəzifəsində çalışmışdır. 2021-2022-ci illərdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində birinci müavin vəzifəsini icra etmişdir. 2023-cü ildən etibarən isə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyində İdarə Heyətinin sədrinin müşaviri vəzifəsinə təyin olunmuşdur.
İngilis, rus və fransız dillərində sərbəst danışır.



# VİTALİY BƏYLƏRBƏYOV

## BEYNƏLXALQ QAZ İTTİFAQININ İCRAİYYƏ KOMİTƏSİ / SOCAR-IN VİTSE-PREZİDENTİNİN MÜAVİNİ

Vitaliy Bəylərbəyov SOCAR-ın vitse-prezidentinin müavinidir. Vitaliy Bəylərbəyovun neft-qaz sənayesində 30 ildən artıq təcrübəsi vardır və İqtisadiyyat üzrə fəlsəfə doktorudur. O, Beynəlxalq Neft Müqaviləçiləri Assosiasiyasının üzvüdür və bir sıra böyük neft-qaz layihələrinin, o cümlədən Azəri-Çıraq-Günəşli yataqları, Şahdəniz qaz-kondensat yatağı, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi layihələri – Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərinin (TAP) yaradılması üzrə danışıqlar və idarəetmə sahələrində rəhbər vəzifələrdə çalışmışdır. V. Bəylərbəyov Cənub Qaz Dəhlizi üzrə Qaz Dəyər Zəncirinin İnteqrasiyası Komandasına rəhbərlik edir, SOCAR-UNIPER MMC-nin Müşahidə Şurasının sədri, South Caucasus Pipeline Company Ltd.-nin Direktoru, SOCAR Midstream Gas Operations MMC-nin Direktorlar Şurasının sədri, Şahdəniz Konsorsiumunun marketinq şirkəti olan Azərbaycan Qaz Təchizatı Şirkəti – AGSC-nin Direktorlar Şurasının sədri və SOCAR Gas Operating Company-nin baş direktoru vəzifələrini icra edir. 2025-ci ildə V. Bəylərbəyov qlobal qaz dəyər zəncirini 80-dən artıq ölkədə təmsil edən Beynəlxalq Qaz İttifaqının İcraiyyə Komitəsinə seçilmişdir.



# STENLİ PORTER

## QLOBAL ENERJİ, RESURSLAR VƏ SƏNAYE SEKTORLARI ÜZRƏ LİDER, QLOBAL SƏNAYE PROQRAMI LİDERİ / DELOITTE GLOBAL

Stenli, Deloitte-un Qlobal Enerji, Resurslar və Sənaye (ER&I) Sektorları üzrə Lideridir. O, ER&I-nin bütün coğrafiyalarda və biznes sahələrində strategiyasının hazırlanması və icrasına cavabdehdir. ER&I müştərilərə aşağıdakı sahələrdə xidmət göstərir: Enerji, Kommunal Xidmətlər və Bərpa Olunan Enerji; Sənaye Məhsulları və Tikinti; Neft, Qaz və Kimya; və Dağ-mədən və Metallurgiya.
Stenli həmçinin Deloitte-un Qlobal Sənaye Proqramı Lideri kimi də çıxış edir və Deloitte-un altı əsas sənaye sahəsi üzrə inkişaf strategiyalarına cavabdehdir: İstehlakçı Sektoru; Enerji, Resurslar və Sənaye; Maliyyə Xidmətləri; Hökumət və İctimai Xidmətlər; Həyat Elmləri və Səhiyyə; və Texnologiya, Media və Telekommunikasiya.
30 ildən artıq təcrübəyə malik olan Stenli, rəhbərlərə strategiya, birləşmə və satınalmalar, əməliyyat səmərəliliyi və texnologiyanın tətbiqi sahələrində dəstək göstərmişdir. Müştərilərə dördüncü sənaye inqilabında naviqasiyada və az karbonlu gələcəyə keçiddə yardım etməyə sadiq qalan Stenli, dekarbonizasiya strategiyalarının və enerji səmərəliliyi həllərinin hazırlanmasında iştirak etmişdir. O, enerji keçidi və ağıllı əməliyyat strategiyaları mövzularında təqdimatlarla çıxış etmiş və məqalələr dərc etdirmişdir.
Stenli, Amerika Birləşmiş Ştatları Enerji Assosiasiyasının, Qlobal Bazarlar və İdarəetmə üzrə Millstein Mərkəzinin, Vaşinqtonun Böyük Oğlanlar və Qızlar Klubunun və (əvvəllər) Deloitte LLP-nin idarə heyətlərinin üzvüdür. Stenli Duke Universitetindən Biznesin İdarə Olunması üzrə magistr dərəcəsi və Wofford Kollecindən bakalavr dərəcəsi almışdır.



## Bİ DENG

### NEFT VƏ QAZ SƏNAYESİ ÜZRƏ PREZİDENT / HUAWEI TECHNOLOGIES

Dr. Deng Huawei şirkətində Neft və Qaz Sənayesi üzrə Prezident vəzifəsində çalışır. O, 2010-cu ilin iyul ayında IP kommunikasiya mühəndisi vəzifəsi ilə Huawei şirkətinə qoşulub.
2012-ci ildə o, Mərkəzi və Şimal Avropa regionlarında Ekologiya İnkişafı üzrə köməkçi direktor təyin olunub.
2014-cü ildə Yaponiya və Koreya regionlarında Ekologiya İnkişafı üzrə direktor vəzifəsinə təyin olunub və həmçinin Huawei Korea-da Bulud və Data Mərkəzi biznesinə rəhbərlik edib.
2016-cı ildə Bulud İnfrastruktur şöbəsinin rəhbəri təyin olunub və daha sonra Koreyada Bulud və Süni İntellekt biznesini idarə edib.
2021-ci ildə Neft və Qaz Sənayesi üzrə direktor vəzifəsinə təyin olunub, həmçinin Senior Industry Solutions Architect kimi fəaliyyət göstərib.
2023-cü il mayın 17-də Neft və Qaz Elit Komandası üzrə köməkçi direktor vəzifəsinə təyin olunub, daha sonra isə Neft və Qaz Sənayesi üzrə Baş direktor vəzifəsinə gətirilib.
2025-ci ildə Neft və Qaz Sənayesi üzrə Prezident vəzifəsinə təyin olunub.
Dr. Deng Makao Universitetindən fəlsəfə doktoru (PhD) dərəcəsi, Koreyanın Chung-Ang Universitetindən magistr dərəcəsi alıb.



## YERNUR JİYENBAYEV

### LAYİHƏ RƏHBƏRİ, MEGA LAYİHƏSI / MASDAR

1998–2004 — Təhsil: Daşkənd Dövlət Texniki Universiteti (bakalavr və magistr)
2004–2006 — Köməkçi, baş müəllim, Qazaxıstan Milli Texniki Universiteti (Qazaxıstan)
2007–2010 — Şardara su elektrik stansiyasının bərpası layihəsinin meneceri (Qazaxıstan)
2010–2014 — "Zhambyl HydroEnergy" MMC-nin müavini (Qazaxıstan)
2014–2015 — İcraçı direktor, "SEZ Pavlodar" MMC (Qazaxıstan)
2015–2018 — Energetika sektorunda özəl şirkətlərdə çalışıb (Qazaxıstan)
2018–2020 — Layihələr idarəsinin rəhbəri, "Samruk-Energy" ASC (Qazaxıstan)
2020–2021 — Baş direktor, "Ekibastuzskaya GRES-1" MMC (Qazaxıstan)
2021–2022 — Baş direktor, "Shoqpar külək elektrik stansiyası" MMC (Qazaxıstan)
2022–2025 — Baş layihə meneceri, MASDAR "Shamol Zarafshan Energy" (Özbəkistan)
2025–indiyədək — Layihə rəhbəri, MASDAR "MEGA" (Azərbaycan)



## GERGANA MANOLOVA

### BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ BİZNES ƏLAQƏLƏRİ ÜZRƏ DİREKTORD / M-GAZ

Gergana Manolova — təbii qaz ticarəti üzrə ixtisaslaşmış Bolqarıstan şirkəti olan M-Gaz Ltd-də Beynəlxalq Əməkdaşlıq və Biznes Əlaqələri üzrə Direktordur. Şirkət hibrid qazlaşdırma sahəsində pionerdir və qazpaylayıcı şəbəkəyə çıxışı olmayan müştərilər üçün sıxılmış təbii qaz (CNG) vasitəsilə qaz təminatı imkanı yaradır.
Gergana Manolova daha əvvəl şirkətdə Davamlı İnkişaf üzrə Menecer və Marketinq Meneceri vəzifələrində çalışıb. O, Vienna Webster universitetindən Menecment və Media Kommunikasiyaları ixtisasları üzrə ikili bakalavr dərəcəsinə, Imperial College Business School London-dan Strateji Marketinq üzrə magistr dərəcəsinə malikdir və hazırda Sofiya Universitetində doktorantura təhsili alır.



## LEONİD JUKOV

### DATA SCİENCE ÜZRƏ VİTSE-PREZİDENT, QLOBAL Aİ İNSTİTUTUNUN DİREKTORU / BOSTON CONSULTING GROUP (BCG)

Dr. Leonid Jukov elm, sənaye tədqiqatları, sahibkarlıq və konsaltinq sahəsində 20 ildən artıq təcrübəyə malik Məlumat Elmləri üzrə Vitse-Prezident və BCG Qlobal Süni İntellekt İnstitutunun direktorudur. O, mürəkkəb real dünya problemlərini həll etmək üçün süni intellektdən istifadə etməyə və qabaqcıl tədqiqatları biznes dəyəri ilə birləşdirməyə diqqət yetirir. Onun təcrübəsi süni intellekt, informasiya texnologiyaları, maliyyə, enerji və sənaye sektorları kimi sahələri əhatə edir. Leonid Utah Universitetində nəzəri fizika üzrə fəlsəfə doktoru və Milli Nüvə Tədqiqatları Universitetində fizika üzrə magistr dərəcəsinə malikdir. O, Kaliforniya Texnologiya İnstitutunda kompüter elmləri üzrə post-doktorantura təhsilini almışdır. Kvant fizikasından, axtarışa, məlumat elminə və süni intellektə qədər geniş tədqiqat təcrübəsinə malikdir. Onun hazırkı tədqiqat maraqlarına mühəndislik, materialşünaslıq və biologiyada süni intellektin tətbiqləri daxildir.
•Süni intellekt sahəsində fundamental və tətbiqi tədqiqatlara həsr olunmuş qeyri-kommersiya təşkilatı olan Süni İntellekt Tədqiqat İnstitutunun təsisçisi və baş direktoru; •Sber AI Laboratoriyasının direktoru, maliyyə xidmətləri və digər məlumat tutumlu sənayelər üçün AI/ML proqramlarının inkişafı ilə məşğul olan böyük maliyyə təşkilatının R&D departamentinin Direktoru və Baş İdarəedici Direktoru. •Ancestry.com-da Məlumat Elmi Direktoru - maşın öyrənməsi, məlumatların əldə edilməsi və miqyasda axtarış işləyib hazırladı və həyata keçirdi; •Yahoo!-da baş elmi işçi İnformasiya axtarışı, internet axtarışı və reklam üçün yeni kəmiyyət alqoritmlərinin və metodlarının tədqiqi, tədqiqat və inkişaf işləri; •Neft və qaz hasilatı və emalı şirkəti üçün rəqəmsal inteqrasiya olunmuş əməliyyatlar mərkəzinin yaradılması; •Neft-kimya zavodunda proqnozlaşdırıcı texniki xidmət və istehsalın optimallaşdırılması üçün ML sisteminin inkişafı; •Aparıcı biofarmasevtika şirkəti üçün qabaqcıl Sənaye 4.0 layihəsinin hazırlanması; •Polad istehsalçısı üçün hərtərəfli rəqəmsal transformasiya strategiyasının hazırlanması; •Emal və marketinq bölməsi üçün rəqəmsal əkiz konsepsiyasının və proqnozlaşdırıcı analitikanın inkişafı



# ADƏM HOMONNAY

## KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ BAŞ VİTSE-PREZİDENT / MOL GROUP

Kəşfiyyat və Hasilat üzrə Baş Vitse-Prezident, Kəşfiyyat və Hasilat üzrə MOL Qrupu
Kəşfiyyat və Hasilat Qrupunun Texniki Komandasına görə, o cümlədən yataqların kəşfiyyatı, işlənməsi, qazılması, yerüstü obyektlər, layihələrin idarə edilməsi, istehsal texnologiyaları və MOL Qrupunun bütün aktivlərində rəqəmsal transformasiyaya görə cavabdehdir. Kəşfiyyat və Hasilat üzrə İcraçı Vitse-Prezidentin müavinidir.
Doğulduğu il: 1977-ci il.
Təhsili:
Maliyyə İnvestisiyasının Təhlili üzrə magistr, Budapeşt İqtisadi Elmlər Universiteti (hal-hazırda: Korvin Universiteti).
Neft Mühəndisliyi sahəsində bakalavr, Mişkolts Universiteti (hal-hazırda)
Milliyəti: Macar
Son 5 ildə tutduğu vəzifələr:
Kəşfiyyat və Hasilat üzrə Baş Vitse-Prezident /MOL Macarıstan
Kəşfiyyat və Hasilat Şöbəsinin rəhbəri / MOL Macarıstan



# MURAD ABDULLAYEV

## BAŞ TEXNOLOGİYA DİREKTORU SOCAR

Murad Abdullayev kimya mühəndisliyi, idarəetmə konsaltinqi, informasiya texnologiyaları və rəqəmsal transformasiya sahəsində 20 ildən artıq peşəkar təcrübəyə malikdir. O, SOCAR prezidentinin informasiya texnologiyaları və rəqəmsal transformasiya üzrə müşaviridir. Peşə fəaliyyətinə 2003-cü ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsini bitirdikdən sonra başlayıb. Murad INSEAD biznes məktəbində MBA dərəcəsi aldıqdan sonra 2017-ci ildə SOCAR Türkiyə nəzdində neft emalı və neft-kimya üzrə biznes bölməsində informasiya texnologiyaları və rəqəmsal transformasiyaya məsul baş direktorun müavini vəzifəsində çalışmışdır. O, idarəetmə üzrə təhsilini MIT Sloan məktəbində, ixtisas təhsilini isə MİT mühəndislik məktəbində davam etdirmişdir. Murad Abdullayev Dünya İqtisadi Forumunun Digital Lighthouse Network proqramının 4-cü Sənaye İnqilabının ekspertlər panelinin üzvüdür.



## METYU BRAYZA

İDARƏ HEYƏTİNİN ÜZVÜ / JAMESTOWN FOUNDATION

Metyu Brayzanın 23 illik diplomatik karyerası çərçivəsində Azərbaycanın ABŞ-dakı səfiri kimi, həmçinin Dövlət Katibinin müavini və Milli Təhlükəsizlik Şurasının Türkiyə, Kipr, Yunanıstan, Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə direktoru vəzifələrində çalışıb. O, həmçinin Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Kipr münaqişələrinin ABŞ vasitəçisi olub və Prezident və Dövlət Katibinə Xəzər hövzəsi enerji təhlükəsizliyi üzrə müavini kimi xidmət göstərib. Soyuq Müharibənin sona çatdığı dövrdə Brayza ABŞ-ın Rusiya və Polşa missiyalarında siyasi katib kimi fəaliyyət göstərib.
İstanbuldakı Straife şirkətində idarəedici direktor olaraq fəaliyyət göstərir. Straife ABŞ-ın korporativ strategiyası və investisiya firmasıdır. Həmçinin, Böyük Xəzər regionundan Kaliforniyaya qədər enerji, mühəndislik və telekommunikasiya sahələrində fəaliyyət göstərən şirkətlərin idarə heyətlərində təmsil olunur.
Bundan əlavə, Brayza Vaşinqtonda yerləşən geosiyasi tədqiqat təşkilatı olan Jamestown Fondunun idarə heyətinin üzvüdür. O, əvvəllər Estoniyanın Tallin şəhərində yerləşən Beynəlxalq Müdafiə və Təhlükəsizlik Mərkəzinin direktoru olub.
Brayza qlobal və regional media orqanlarında tez-tez şərhçi kimi çıxış edir.



## AYTƏN HACIYEVA-AĞALAROVA

VİTSE-PREZİDENT, GÜRCÜSTAN BP AGT

Ayten enerji sənayesində geniş təcrübəyə malik peşəkar liderdir. bp-nin Gürcüstandakı ölkə rəhbəri kimi o, strategiyanın həyata keçirilməsi, dövlət qurumları ilə əlaqələr və xarici əlaqələrə rəhbərlik edir, eyni zamanda dayanıqlılıq prinsipini biznes proseslərinə inteqrasiya edir. Karyerası boyunca Ayten əməliyyat mükəmməlliyi, innovasiya, rəqəmsal transformasiya və maraqlı tərəflərlə əməkdaşlığın tərəfdarı olub.
O, Azərbaycan-Gürcüstan-Türkiyə regionunda və daha geniş bp-də innovasiya və rəqəmsal transformasiyanın inkişafına böyük maraq göstərir. Onun rəhbərlik etdiyi regional innovasiyalar komandası hökumət, universitetlər və tədqiqat mərkəzləri ilə əməkdaşlıq sayəsində Azərbaycanda rəqəmsal ekosistemin formalaşmasına töhfə verib. Son illərdə Ayten müştəri tələblərinə əsaslanan yeni rəqəmsal fəaliyyət strategiyasının hazırlanmasında və güclü rəqəmsal mədəniyyətin yaradılmasında mühüm rol oynayıb.
Ayten eyni zamanda Aberdin Universitetinin müstəqil idarə heyəti üzvüdür və bu vəzifədə institutun idarəetmə, qərarların qəbulu və uzunmüddətli inkişaf proseslərini dəstəkləyir.
Ayten Azərbaycan Dövlət Neft Akademiyasının Neft-mühəndisliyi ixtisası üzrə bakalavr dərəcəsinə və Warwick Biznes Məktəbinin MBA dərəcəsinə malikdir. Hazırda Warwick Biznes Məktəbində doktorantura təhsili alır və elmi araşdırmaları ağıllı transformasiya, süni istifadəçilər və insan-maşın əməkdaşlığının gələcəyi mövzusuna həsr olunub.



## ELMİR MUSAYEV

BAŞ DİREKTOR
SOCAR GREEN

Elmir Musayev enerji sektorunda on ildən artıq təcrübəyə malik, dinamik və nəticəyönümlü bir liderdir. SOCAR Green şirkətinin baş direktoru kimi, o, dayanıqlı enerji təşəbbüslərinə rəhbərlik edir və onların Azərbaycanda strateji inkişafını təmin edir.
Bundan əvvəl Elmir SOCAR-ın törəmə müəssisəsi olan "Cənub Qaz Dəhlizi" QSC-də Korporativ Maliyyə Departamentinin rəhbəri vəzifəsində çalışıb və burada doqquz il ərzində strateji əhəmiyyətli layihələrin icrasına nəzarət edib. Onun peşəkar təcrübəsinə Holcim Azərbaycan kimi beynəlxalq şirkətlərdəki vəzifələr, eləcə də ABŞ-da əldə etdiyi beynəlxalq təcrübə daxildir.
Elmir MBA dərəcəsini ABŞ-ın Old Dominion Universitetindən alıb, burada həmçinin müəllim assistenti kimi fəaliyyət göstərib. O, bakalavr təhsilini Azərbaycan Dövlət Neft Akademiyasında başa vurub. Bundan əlavə, o, Almaniyanın Hochschule Bremen universitetində iqtisadiyyat üzrə təhsil alıb və CFA sertifikatına malikdir.



## AYLA ƏZİZOVA

BAŞ MALİYYƏ MENECERİ
BP

Ayla Əzizova bp Azərbaycan-Gürcüstan-Türkiyə regionunun Azərbaycanda bərpa olunan enerji layihələrinin biznesin inkişafı və kommersiya cəhətlərinə cavabdeh olan Baş maliyyə meneceridir. Ayla 23 ildən artıq iş təcrübəsinə malikdir. Bu təcrübənin təxminən 19 ilini o, bp-də biznesin inkişafı, kommersiya idarəçiliyi, birgə müəssisələrin idarə edilməsi və s. sahələrdə bp-nin regiondakı apstrim və midstrim biznes bölümlərində qazanıb. Ayla, INSEAD (Fransa) universitetini biznesin idarə edilməsi üzrə magistr dərəcəsi (MBA), Sirakuza universitetinin (ABŞ) Maksvell Vətəndaşlıq və İctimai Əlaqələr Məktəbini dövlət idarəçiliyi üzrə magistr dərəcəsi (MPA), Azərbaycan Dövlət İqtisadiyyat Universitetini – UNEC (Azərbaycan) İqtisadiyyatın hüquqi tənzimlənməsi üzrə elmlər magistri dərəcəsi ilə bitirib.



# ELİF DÜŞMEZ TEK

## STRATEGİYA ÜZRƏ KONSALTİNQ PARTNYORU VƏ DELOİTTE TÜRKİYƏNİN BAŞ STRATEGİYA DİREKTORU, DELOİTTE TÜRKİYƏ İCRA KOMİTƏSİNİN ÜZVÜ

Elif Deloitte Türkiyə İcra komitəsinin üzvüdür və Baş strategiya direktoru vəzifəsini icra edir. O, strategiya, risk və əməliyyatlar biznes blokunda partnyor olaraq strategiya və biznes dizaynı xidmət portfelinə rəhbərlik edir. Baş strategiya direktoru vəzifəsinə başlamazdan əvvəl Elif altı il ərzində Deloitte Türkiyədə enerji, ehtiyatlar və sənaye sahələrinin rəhbəri olmuşdur. O, xüsusilə elektrik enerjisi, kommunal xidmətlər və bərpa olunan enerji sahələrinə fokuslanaraq enerji sahəsində geniş təcrübəyə malikdir. Elif Türkiyə elektrik və qaz bazarlarının liberallaşdırılmasını dəstəkləyən əsas bazar transformasiya təşəbbüslərinə, o cümlədən balanslaşdırma və hesablaşma sistemi layihəsinə və Enerji Birjası İstanbulun (EXIST) yaradılmasına töhfə vermişdir.
O, yerli və beynəlxalq özəl investorları Türkiyə enerji bazarına dair strategiyalar və investisiya qərarlarında məsləhətlə təmin etmişdir. Onun əsas ixtisas sahələrinə elektrik və qaz üçün təşkilatlanmış bazarların dizaynı və tətbiqi, tarif və qiymət strategiyalarının hazırlanması, Aİ enerji qanunvericiliyi ilə tənzimləyici uyğunluq, bazar simulyasiyası, enerji tələbatı və təchizat planlaşdırılması, birləşmədən sonrakı inteqrasiya, hədəf əməliyyat modeli dizaynı və müəssisə transformasiyası proqramları daxildir.
Elif həmçinin Enerji Sektorunda Rəqəmsallaşma İnstitutu (EDİDER) prezidenti kimi enerji sektorunda rəqəmsal transformasiyanın sürətləndirilməsinə yönəlmiş təşəbbüslərə rəhbərlik edir. Eyni zamanda TÜSİAD-ın enerji sənayesi işçi qrupunun üzvü kimi yüksək səviyyəli siyasətlərin formalaşdırılmasına və strateji istiqamətin müəyyənləşdirilməsinə töhfə verir.
Elif son dövrlərdə müxtəlif sənaye sahələrində olan müştərilərə strategiya və biznes dizaynı üzrə strateji transformasiya proseslərində dəstək göstərir.



# REBEKKA FİTTS

## ENERJİ İNKİŞAF MƏRKƏZİNİN PARTNYOR VƏ DİREKTORU/ BOSTON CONSULTING GROUP (BCG)

Rebekka Fitts, Boston Consulting Group-un Enerji İnkişaf Mərkəzinin (Center for Energy Impact) həmtəsisçilərindən biridir. O, iri neft-qaz və digər enerji şirkətlərinə korporativ və portfel strategiyası, səhmdarların gəlirliliyi və investisiya strategiyası kimi məsələlərdə məsləhətçilik xidmətləri göstərmişdir.
Rebekkanın əsas fəaliyyət istiqamətləri enerji sahəsində səmərəlilik, davamlı inkişaf və qlobal enerji sistemində rəqabət mühitinin müqayisəli təhlilidir. O, enerji sektorunda səhmdarların ümumi gəlirliliyi, ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə (ESG) mövzularına həsr olunmuş layihələrdə fəal iştirak edir və bu sahələr üzrə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən şirkətlərlə əməkdaşlıq etmişdir.
Rebekka enerji sənayesində 15 ildən artıq təcrübəyə malikdir. BCG-yə qoşulmazdan əvvəl IHS və PFC Energy şirkətlərində rəhbər vəzifələrdə çalışmış, burada kəşfiyyat və hasilat sahəsində strategiyanın hazırlanması və rəqabət mühitinin araşdırılması üzrə məsuliyyət daşıyırdı.



## ÇİNQİZ ORUCOV

BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ SEKTORUNDA BİZNES İNKİŞAFI ÜZRƏ BAŞ MÜTƏXƏSSİS / TOTALENERGİES AZƏRBAYCAN

Enerji sektorunda 20 ildən artıq təcrübəsi olan Chingiz enerji layihələrinin maliyyələşdirilməsi, işlənməsi və ekoloji aspektləri üzrə zəngin biliklərə malikdir. Karyerası ərzində o, Afrika və Mərkəzi Asiyanın bir çox ölkələrində həm ənənəvi, həm də bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsi işlərinə rəhbərlik etmişdir. Chingiz York Universitetindən Ətraf Mühitin İqtisadiyyatı ixtisası üzrə magistr dərəcəsi almışdır. O, Enerji Mühəndisləri Assosiasiyasının Sertifikatlı Enerji Meneceridir.



## POLİNA LYUBOMİROVA

BİZNESİN İNKİŞAFI ÜZRƏ DİREKTOR ACWA POWER

Polina Lyubomirova enerji sahəsində geniş təcrübəyə malikdir və hazırda "ACWA Power" şirkətində Biznesin İnkişafı üzrə Direktor vəzifəsində çalışır, Azərbaycanın enerji sektorunda şirkətin genişlənməsi prosesində liderlik edir. Polina enerji sənayesində zəngin karyeraya malikdir və karyerasına "Royal Dutch Shell" şirkətində başlamışdır. "Shell"də işlədiyi müddətdə o, sektorlararası layihələrin təşkili və dünya üzrə əsas G2G tərəfdaşlıqlarının qurulması təcrübəsi ilə qlobal xam və neft məhsulları üzrə "Shell Trading"in "Origination & Investments" təcrübəsi də daxil olmaqla bir çox qlobal biznes və təşkilat xətləri ilə məşğul olmuşdur.
Polina daha sonra "Shell"də "Bərpa Olunan Enerji və Enerji Həlləri" təşkilatına keçərək, dənizdə külək enerjisi layihələri üzərində çalışmış və daha sonra "Masdar" şirkətində qlobal biznesin inkişafı və mənşə yaradıcılığı (origination) sahəsində çoxgigavatlıq hibrid texnologiya layihələrinə rəhbərlik etmişdir.
Polina uzunmüddətli qarşılıqlı dəyər yaratmağa və yeni biznes modelləri vasitəsilə mövcud portfelləri genişləndirməyə diqqət yetirərək enerji sənayesini transformasiya etməyə hədəflənib.



# MƏRYƏM RAŞED AL MAZROUEI

## BİZNESİN İNKİŞAFI VƏ İNVESTİSİYALAR ÜZRƏ RƏHBƏR (MDB) / MASDAR

Məryəm Raşed Al Mazrouei Müstəqil Dövlətlər Birliyi (MDB) və Rusiya regionları üzrə strateji missiyaya malik Masdar Bərpa Olunan Enerji Bölməsində Biznesin İnkişafı və İnvestisiya şöbəsinin rəhbəri, həmçinin Masdar Azerbaijan Energy MMC-nin İdarə Heyətinin üzvüdür.

Məryəmin təcrübəsi biznes və investisiya imkanlarının inkişaf etdirilməsi, texniki, kommersiya, hüquqi və maliyyə təhlilləri də daxil olmaqla, kompleks araşdırmanın aparılması, investisiyaların əsaslandırılması və tikinti mərhələsinə qədər layihələrə rəhbərlik kimi fəaliyyətləri əhatə edir.

O, İndoneziyada regionun ən böyük üzən günəş enerjisi stansiyası olan Cirata-dan Azərbaycanda xarici investisiyaya əsaslanan ilk müstəqil kommunal miqyaslı günəş enerjisi layihəsi olan Qaradağ Günəş Enerjisi Stansiyasına qədər bir sıra dünya miqyaslı, geniş profilli layihələrə Masdar daxilində uğurla rəhbərlik etmişdir. Məryəm 7 milyard ABŞ dollarından çox investisiya öhdəliyini təmsil edən 6GW-dan çox layihə portfelini idarə edir.

Məryəm Masdar Elm və Texnologiya İnstitutunda Mühəndislik və Sistemlərin İdarə Edilməsi üzrə magistr dərəcəsinə və Birləşmiş Ərəb Əmirlikləri Universitetində Kimya Mühəndisliyi üzrə bakalavr dərəcəsinə malikdir. O, həmçinin 1-ci səviyyəli Diplomlu Maliyyə Analitiki kvalifikasiyasına malikdir və London Biznes Məktəbində birləşmə və satınalmalar üzrə icraçı ixtisasına yiyələnmişdir.

BAKU ENERGY FORUM 30

# İŞTİRAKÇILARININ TƏQDİM ETDİKLƏRİ MƏLUMATLAR

Forum materiallarında istifadə edilən iştirakçı şirkətlər haqqında məlumat, həmin şirkətlər və ya müəssisələr tərəfindən təqdim olunmuşdur. Forumun təşkilatçısı olan Iteca Caspian bu məlumatın düzgün olmasına dair heç bir məsuliyyət daşımır.

## DƏSTƏK / TƏRƏFDAŞ

### AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ (SOCAR)

Heydər Əliyev prospekti, 121
Bakı, AZ1029, Azərbaycan
Tel.: +994 503202868
E-mail: communicationgroup@socar.az
www.socar.az/az/home

Dünyada tanınmış şirkətlərdən biri və regionun ən böyük enerji şirkəti olan SOCAR axtarış-kəşfiyyat, hasilat, nəql, emal və istehsal, marketinq, yanacağın pərakəndə satışı, qaz paylanması və bərpa olunan enerji mənbələrinin inkişafı ilə məşğul olur. Dünyanın 15-dən çox ölkəsində fəaliyyət göstərən SOCAR şanlı neft və qaz irsini innovativ texnologiya və səriştələrlə genişləndirərək yerli, regional və beynəlxalq kontekstdə davamlı inkişafa və enerji təhlükəsizliyinə uğurla töhfə verir. Şirkətin Türkiyə, Gürcüstan, İsveçrə, BƏƏ, Rumıniya, Ukrayna və Rusiyada törəmə və birgə müəssisələri, Almaniya, Bolqarıstan, Albaniya və Türkmənistanda nümayəndəlikləri fəaliyyət göstərir. 2035-ci ilə qədər Korporativ Strategiyaya əsasən, SOCAR-ın uzunmüddətli hədəfləri rəqəmsallaşma, innovasiya və "yaşıl" enerjiyə keçid yolu ilə fəaliyyətini inkişaf etdirən müasir enerji şirkəti olmaqdan ibarətdir.

## SPONSOR

### ACWA POWER

Nizami 90A, Landmark III
Bakı, AZ1010, Azərbaycan
Tel.: +994 2346381
Eımail: communications.az@acwapower.com
www.acwapower.com

Biz enerji istehsalı və duzsuzlaşdırılmış su zavodlarının inkişaf etdirilməsi, investisiyası və istismarı ilə məşğul olan bir şirkətik. Hazırda 14 ölkədə istismarda, tikilməkdə və ya inkişafın son mərhələsində olan 101 aktivimiz var. 4,000-dən çox əməkdaşımız var və onların təxminən 55%-i yerli işçilərdir. ACWA Power-ın portfeli 107.5 milyard ABŞ dolları investisiya dəyərinə malikdir, 78.85 GW gücündə elektrik enerjisi istehsal etmək və gündə 9.5 milyon $m^3$ duzsuzlaşdırılmış su istehsal etmək imkanına malikdir. Azərbaycanda biz Xızı-Abşeron 240 MVt gücündə külək elektrik stansiyası layihəsini inkişaf etdiririk. Bu layihə Azərbaycanda və Qafqaz regionunda ən böyük külək elektrik stansiyası olacaq. Bundan əlavə, ACWA Power Azərbaycanda ilk genişmiqyaslı duzsuzlaşdırma layihəsinin qalibi elan olunub ki, bu da ölkənin enerji və su təhlükəsizliyi məqsədlərinə dəstəyimizi bir daha nümayiş etdirir.

### AZEL SYSTEMS MMC

203B Nizami küçəsi
Bakı, AZ1010, Azərbaycan
Tel.: +994 99412 0124974040
E-mail: iy@azel.net
www.azelsystems.az

### AZERBAJAN GREEN ENERGY COMPANY LLC

Neftçilər prospekti 153
Bakı, 1010, Azərbaycan
Tel.: +994 12 556700364
E-mail: sevinj.ibrahimova@agec.az

## DƏSTƏK

### AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

Ü. Hacibəyov küç. 84, Hökümət evi
Bakı, 1000, Azərbaycan
Tel.: +994 12 5981655
E-mail: minenergy@minenergy.gov.az
www.minenergy.gov.az

### BAKER HUGHES

Kabanbay Batyra Avenue 15/1
Astana, 010000, Qazaxıstan
Tel.: +7 771 0401179
E-mail: yulia.kondratieva1@bakerhughes.com
www.bakerhughes.com

### BEYNƏLXALQ BƏRPA OLUNAN ENERJİ AGENTLİYİ (IRENA)

Masdar City, P.O. Box 236,
Əbu-Dabi, 236, Birləşmiş Ərəb Əmirlikləri
Tel.: +971 24179000
E-mail: info@irena.org
www.irena.org

### BEYNƏLXALQ ENERJİ XARTİYASI

PrimaryBoulevard de la Woluwe, 46
Brüssel, 1200, BE, Belçika

### BEYNƏLXALQ ENERJİ FORUMU

Riyadh, 94736, Səudiyyə Ərəbistanı
Tel.: +966 11614 506228431
E-mail: lina.murad@ief.org

■ İNTELLEKTUAL TƏRƏFDAŞ

## (BCG) BOSTON CONSULTİNG GROUP

Landmark III, Nizami küç. 90A
Bakı, AZ1010, Azərbaycan
E-mail: ganeeva.anna@bcg.com
www.bcg.com

